

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 01 (843) ■ 11 yanvar 2017 www.vergiler.az Qiyməti: 55 qəp.

# Seçdiyimiz yeganə düzgün yol müstəqillik, sabitlik, inkişaf yoludur

**Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib**



Tədbirdə giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı bildirib ki, 2016-cı ildə dünyada və regionda təhlükələr artıb, qanlı müharibələr davam edib, hətta yeni münaqişə ocaqları yaranıb, qlobal iqtisadi inkişafla bağlı vəziyyət ağırlaşıb. Bütün bunlara baxmayaraq, Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirib, təhlükəsizlik tədbirləri təmin olunub, xalqımız sülh və əmin-amanlıq şəraitində yaşayıb.

«Ölkəmizdə sabitliyin mənbəyi xalqın iradəsi və onun seçimidir», - deyən dövlətimizin başçısı ötən il qarşıda duran bütün vəzifələrin icra edildiyini, neftin qiymətinin aşağı düşməsi fonunda yaranan böhranlı vəziyyətdən çıxış yolu tapıldığını bildirib.

Prezident qeyd edib ki, ötən il ölkəmizin qarşısında duran bütün vəzifələr icra edilib: «Neftin qiymətinin düşməsi nəticəsində yaranan böhranlı vəziyyətdən çıxış yolu tapılıb. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik və inkişaf yolu ilə gedir. Biz çalışmışıq, bundan sonra da çalışacağıq ki, ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik, sabitlik, inkişaf yoludur».

2016-cı ilin ölkəmizin tarixində dərin iqtisadi islahatlar dövrü kimi qalacağını vurğulayan Prezident İlham Əliyev qəbul edilən qərarlar nəticəsində bundan sonra da qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində olacağını qeyd edib: «Təsadüfi deyil ki, keçən il neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi nəticəsində ümumi daxili məhsul azalsa da, qeyri-neft sənayesində 5, kənd təsərrüfatında isə 2,6 faiz artım əldə olunub. Bu iki rəqəm onu deməyə əsas verir ki, biz bu çətin və böhranlı şəraitdən şərəfli çıxa bildik. Görülmüş işlər və görüləcək işlər bu dinamikanı daha da gücləndirəcək. İqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft sektorumuz inkişaf edəcək, yeni iş yerlərinin yaradılması təmin ediləcək. Əminəm ki, biz bütün bu hədəflərə çatacağıq».

Keçən il Azərbaycana 8 milyard dollar xarici, 3,7 milyard dollar daxili sərmayənin qoyulduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, 2016-cı ildə əsas vəzifələrdən biri valyuta ehtiyatlarının qorunması idi və buna da nail olunub. Bəzi neft ölkələrindən fərqli olaraq Azərbaycanda Dövlət Neft Fondunun vəsaitlərindən səmərəli istifadə edilib. Ölkədə görülən işlərin beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirildiyini, Davos İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə 37-ci yerdə qərarlaşdırdığını deyən Prezident İlham Əliyev böhranlı ildə belə ölkədə 100 mindən çox daimi iş yerinin açıldığını vurğulayıb.

Bildirilib ki, ötən il sosial məsələlərin həlli yenə də diqqət mərkəzində olub, maaşlar 7, pensiyalar 8 faiz artıb və yenə də artmalıdır. Bununla yanaşı, kommunal xidmətlərin diferensillaşdırılması da sosial ədalət prinsipinə əsaslanıb, orta təbəqənin maraqları nəzərə alınıb. Sosial siyasətin tərkib hissəsi kimi 485 məktəb təmir olunub, 29 yeni məktəb tikilib, 41 tibb müəssisəsi tikilib və ya təmir edilib. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılıb. Bundan əlavə, «ASAN xidmət» mərkəzlərinin sayı 11-ə çatdırılıb. İndiyə qədər bu mərkəzlərə 13 milyon müraciət daxil olub, göstərilən xidmətlərin sayı artırılıb. «ASAN viza»nın fəaliyyətə başlaması ölkəmizə turist axınının daha da sürətlənməsinə geniş imkanlar açıb. 2016-cı ildə Azərbaycana gələn turistlərin sayı 11 faiz artıb.

Ötən il beynəlxalq əlaqələrimizin daha da genişləndiyini deyən Prezident İlham Əliyev 2016-cı ildə Azərbaycana 20-yə yaxın dövlət və hökumət başçısının səfər etdiyini, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndiyini bildirib, Azərbaycan torpaqlarının işğaldan azad olunması və BMT-nin 4 qətnaməsinin yerinə yetirilməsi ilə bağlı Azərbaycanın mövqeyinin dəyişməz qaldığını vurğulayıb. 2016-cı ilin aprelində təmas xəttində baş verən döyüşlərə toxunan Prezident İlham Əliyev əks hücum əməliyyatı nəticəsində ordumuzun düşmənə sarsıdıcı zərbələr vurduğunu və minlərlə hektar torpağın işğaldan azad edildiyini diqqətə çatdırıb: «Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm də bir daha Azərbaycan dövlətinin gücünü göstərdi. Göstərdi ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq, biz bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda, illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Onlar özləri etriaf edirlər ki, xarici yardım olmasa, onlar bizim qarşımızda bir həftə dura bilməyəcəklər».

2016-cı ilin vacib hadisələrindən danışarkən Prezident İlham Əliyev «Cənub» qaz dəhlizinin və «Şahdəniz-2» layihəsinin icrası ilə bağlı bütün addımların atıldığını, TANAP layihəsinin böyük hissəsinin icra edildiyini, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı tədbirlərin görüldüyünü qeyd edib.

2016-cı ildə idmançılarımızın Rio Olimpiadasında tarixi nailiyyətə imza atdığını deyən dövlət başçısı sentyabrda baş tutan referendumun nəticələrini də vurğulayaraq, onun xalqımızın iradəsini əks etdirdiyini diqqətə çatdırıb.

> Keçən il neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi nəticəsində ümumi daxili məhsul azalsa da, qeyri-neft sənayesində 5, kənd təsərrüfatında isə 2,6 faiz artım əldə olunub. Görülmüş işlər və görüləcək işlər bu dinamikanı daha da gücləndirəcək. İqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft sektorumuz inkişaf edəcək, yeni iş yerlərinin yaradılması təmin ediləcək

Ötən ilin ölkəmizdə «Multikulturalizm ili» elan edildiyini deyən Prezident İlham Əliyev il ərzində Bakıda bir neçə mötəbər beynəlxalq tədbirlərin keçirildiyini, Roma Papasının ölkəmizə səfəri zamanı verdiyi bəyanatların bir daha Azərbaycanın önəmini təsdiqlədiyini qeyd edib.

Sonra Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyev və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

Prezident İlham Əliyev yekun nitqində inşaat sektorunun canlandırılması ilə bağlı bir çox tədbirlərin həyata keçirildiyini deyib, bu prosesin insanların həyat şəraitinin yaxşılaşdırılmasına, Bakının daha da gözəlləşməsinə, həm də tikinti materialları bazarının stimullaşdırılmasına xidmət etdiyini bildirib. Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətini vurğulayaraq qarşıdakı illərdə paytaxtda iki minə yaxın sosial mənzilin inşa olunacağını və Bakıda köhnəlmiş mənzil fondunun yerində yenilərinin tikintisinə start verildiyini, «Ağ şəhər» layihəsinin uğurla icra olunduğunu, qarşıdakı dövrdə Akademik Milli Dram Teatrının arxasında və Təzə Pir məscidinin ətrafında geniş abadlıq işlərinin aparılacağını, ictimai yerlərin yaradılacağını qeyd edib.

2017-ci ildə makroiqtisadi sabitliyin təmin edilməsinin, inflyasiyanın birrəqəmli olmasının vacibliyini vurğulayan Prezident İlham Əliyev bank sektorunun sağlamlaşdırılması ilə bağlı bu il də geniş tədbirlərin görülücəyini deyib. O, sənaye parklarının yaradılması, kənd təsərrüfatının, xüsusilə də taxıl, pambıq, çay, barama və şərab istehsalının artırılması, valyuta gətirən meyvə plantasiyalarının salınması, heyvandarlığın inkişafı ilə bağlı tədbirlərin görülməsinin əhəmiyyətini vurğulayaraq, istehsal olunan məhsullar üçün yeni bazarların tapılmasının vacibliyini qeyd edib.

Ölkədə infrastrukturun yaradılması, qazlaşdırmanın aparılması, kənd yollarının tikintisi, içməli su layihələrinin icrası ilə bağlı tapşırıqlarını verən Prezident İlham Əliyev hərbi potensialın gücləndirilməsinə dair əlavə tədbirlərin görüləcəyini bildirib, ekoloji tədbirlərin, ölkəyə turist axınının stimullaşdırılmasının, «ASAN xidmət»in coğrafiyasının və funksiyalarının genişləndirilməsinin, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin birinci mərhələsinin tam başa çatdırılmasının diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

Prezident İlham Əliyev 2017-ci ildə Bakının bir sıra beynəlxalq tədbirlərə, həmçinin İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyini deyib. Dövlət başçısı 2017-ci ili Azərbaycanda «İslam həmrəyliyi ili» elan edib.

## Azərbaycanın dövlət başçısı xarici ölkələrin səfirlərinin etimadnaməsini qəbul edib

Prezident İlham Əliyev yanvarın 9-da Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri xanım Marin Mittusun etimadnaməsini qəbul edib. Səfir Marin Mittus ilə söhbət edən dövlətimizin başçısı özünün Estoniyaya, Estoniya Prezidentinin də Azərbaycana səfərini məmnunluqla xatırladıb, ölkələrimiz arasında çox yaxşı qarşılıqlı anlaşmanın olduğunu və siyasi sahədə ölkələrimizin daim bir-birini dəstəklədiyini qeyd edib. Bildirib ki, Azərbaycan və Estoniya beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq edir. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi işinə və qarşılıqlı idxal-ixrac əməliyyatlarının stimullaşdırılması, imkanların müəyyənləşdirilməsi üçün yaxşı şərait yaradılacağına ümidvar olduğunu deyib.

Dövlətimizin başçısı əlaqələrimizin möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini də qeyd edib, mədəniyyət sahəsində əməkdaşlığın xalqlarımızın bir-birini daha yaxından tanıması baxımından önəmini vurğulayıb. İkitərəfli münasibətlərimizin Avropa İttifaqı çərçivəsində uğurlu inkişafından məmnunluq ifadə edilib. Səfir Estoniya Respublikasının Prezidenti Kersti Kaljulaidın salamlarını Prezident İlham Əliyevə çatdırıb, yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın möhkəmləndirilməsi baxımından önəmini qeyd edib.

Görüşdə ölkələrimiz arasında ticarət, nəqliyyat, informasiya texnologiyaları, turizm, kənd təsərrüfatı və mədəniyyət sahələrində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan Prezidenti Finlandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri xanım Arya İnkeri Makkonenin də etimadnaməsini qəbul edib. Söhbət zamanı Azərbaycanla Finlandiya arasında əlaqələrin yaxşı inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın gələcəkdə də uğurla inkişaf edəcəyinə əminlik ifadə edilib.

Səfir Arya İnkeri Makkonen Finlandiya Respublikasının Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırıb. Ölkələrimiz arasında yaxşı münasibətlərin olduğunu deyən səfir ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsi, ticarət əlaqələrinin genişləndirilməsi və müxtəlif sahələrdə qarşılıqlı səfərlərin artırılması istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb. Parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə toxunan səfir Arya İnkeri Makkonen Azərbaycan və Finlandiya arasında qarşılıqlı əlaqələrin və səfərlərin vacibliyini qeyd edib.

Prezident İlham Əliyev Perunun Azərbaycanda yeni təyin olunmuş səfiri Luis Manuel Santiaqo Markoviç Monasinin etimadnaməsini qəbul edib. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin gücləndirilməsi ilə bağlı əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi üçün çox yaxşı fürsət yarandığı qeyd olunub. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı nəzərdə tutulan işlər barədə dövlətimizin başçısına məlumat verilib. Perulu diplomat iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı nəzərdə tutulan işlər barədə dövlətimizin başçısına məlumat verib.

Prezident İlham Əliyev ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq mədəni əlaqələri genişləndirməyin və xalqlarımızın bir-birini yaxından tanımalarının zəruriliyini vurğulayıb. Siyasi və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin önəmini qeyd edən Azərbaycan Prezidenti ölkələrimiz arasında ikitərəfli münasibətlərin genişləndirilməsi, xüsusilə ticarət və turizm sektorlarında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi üçün imkanların araşdırılmasının vacibliyini diqqətə çatdırıb, ölkələrimizin istehsal etdikləri müxtəlif məhsulların qarşılıqlı ixracının mümkünlüyünü bildirib.

BU NÖMRƏMİZDƏ

VERGİ MƏCƏLLƏSİNƏ EDİLƏN DƏYİŞİKLİKLƏR VERGİ YÜKÜNÜN AZALDILMASINA ŞƏRAİT YARADACAQ 2

VERGİLƏR NAZİRLİYİNDƏ BANK SEKTORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 3

AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ AGENTLİYİ YARADILACAQ 4

«ASAN VİZA» BİZNESİN İNKİŞAFINA TƏKAN VERƏCƏK 5

# Vergi Məcəlləsinə edilən dəyişikliklər vergi yükünün azaldılmasına şərait yaradacaq

**2016-cı il dekabrın 29-da Vergilər Nazirliyində ölkənin aparıcı KİV nümayəndələrinin iştirakı ilə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə həsr olunmuş mətbuat konfransı keçirilib.**

Mətbuat konfransında çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanun vergi sistemində həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi islahatların həyata keçirilməsi üçün əsas yaradır. Qeyd olunub ki, Məcəlləyə 115 yeni maddə əlavə olunub, 83 maddədə dəyişiklik edilib, 3 maddə ləğv edilib. Dəyişikliklərdən 123-ü vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, 34-ü vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8-i vergi yükünün azaldılması, vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır.

Sahib Ələkbərov vurğulayıb ki, ölkə Prezidentinin 2016-cı ilin avqust ayında imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamına uyğun olaraq hazırlanmış əlavə və dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin əsas istiqamətləri barədə məlumat verən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva KİV təmsilçilərinin nəzərinə çatdırıb ki, Vergi Məcəlləsində nəzərdə tutulan vergi güzəştləri və azadolmalarla bağlı dəyişikliklərin vergi ödəyicilərinin vergi yükünün azaldılmasına, onların dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacaq, sahibkarlığın inkişafına dəstək verəcək. Qeyd edilib ki, icbari tibbi sığorta və səhiyyə (tibb) xidmətləri göstərən müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun, dövlət adından yaradılan səhiyyə (tibb) müəssisələrinin gəlirləri mənfəət vergisindən müddətsiz, buğdanın idxalı və satışı, buğda unu və çörəyin istehsalı və satışı, quş ətinin satışı isə 3 il müddətində ƏDV-dən azad edilib. Bankların restrukturizasiya və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərinin təqdim edilməsi 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilib. Banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividendin, diskont və faiz gəlirlərinin gəlir vergisindən azad edilməsi müddəti 2023-cü ilin fevral ayınadək artırılıb. Sahibkarların vergi yükünün




> Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır

azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddətləri də azaldılıb.

Məcəlləyə edilmiş mühüm dəyişikliklərdən biri də sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin həyata keçirilməsi zamanı elektron qaiməfakturanın təqdim olunmasıdır. Bu tələb ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər üçün 2017-ci ilin aprelindən, bütün digər vergi ödəyiciləri üçün isə 2018-ci ilin yanvarından qüvvəyə minəcək. Vergi Məcəlləsinə edilmiş bu dəyişikliklər sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edəcək.

Məcəlləyə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlərin Azərbaycan mənbəyindən gəlirlərə aid olunmasını və həmin ödənişlərdən ödəmə mənbəyində əlavə 10 faiz dərəcə ilə vergi tutulmasını nəzərdə tutan müddəalar daxil edilib.

Elektron ticarətin vergiyə cəlb olunması ilə bağlı qanunvericiliyə edilmiş əlavə və dəyişiklikləri şərh edən S.Musayeva bildirib ki, elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsi, habelə elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsinə görə ƏDV alıcının olduğu yerdə tətbiq ediləcək. Bu dəyişikliyin əsas məqsədi rəqabət şərtlərinin eyniləşdirilməsini və uçot sisteminin qurulmasını təmin etməkdir.

Məcəlləyə edilmiş dəyişikliklərdən biri də kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlıdır. Kənd təsərrüfatı məhsullarının istehsalçıları vergilərdən azad edilsə də, onların məhsulları ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən bu məhsulların tam dəyəri ümumi qaydada ƏDV-yə cəlb edilirdi ki, bu da bir sıra suallara səbəb olurdu. Qeyd edilənləri nəzərə alaraq, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühiti yaratmaq və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanacaq.

Vergi Məcəlləsində daha bir yenilik sabit verginin tətbiqi ilə bağlıdır. Sabit vergi fərdi qaydada, yəni muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərə tətbiq ediləcək. Belə ödəyicilər əsasən kiçik həcmdə gəlirlərə malik şəxslərdir. Qüvvədə olan vergi qanunvericiliyinə görə, onlar vergi uçotuna alınaraq gəlirləri haqqında bəyannamə təqdim etməli, vergilərini hesablayıb dövlət büdcəsinə ödəməlidirlər. Bəzi fəaliyyət növlərinin sabit vergiyə cəlb olunması ilə bağlı Vergi Məcəlləsinə edilmiş dəyişikliyin əsas məqsədi bu sahədə uçotun sadələşdirilməsi və belə şəxslərin vergi yükünün minimallaşdırılması məqsədini daşıyır. Bundan sonra bu cür fəaliyyətlə məşğul olan fiziki şəxslər əldə etdikləri gəlirlərin məbləği nəzərə alınmadan, bəyannamə təqdim etmədən, kiçik bir sabit məbləğ ödəməklə həyata keçirə biləcəklər.

---

Sonra nazirliyin rəhbər vəzifəli şəxsləri KİV nümayəndələrinin suallarını cavablandırıblar:

**«Haqqın» İnformasiya Agentliyi:**
***- Bəzi ölkələrdə mövcud olan «dəbdəbə vergisinin» Azərbaycanda tətbiqi nəzərdə tutulurmu?***

S. Musayeva:

- Vergi Məcəlləsinə edilən dəyişikliklərdə konkret olaraq dəbdəbə vergisinin tətbiqi nəzərdə tutulmasa da, sənəddə ölkəyə idxal edilən istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün istifadə olunan digər vasitələr, mühərrikinin həcmi 2000 kubsantimetrdən yuxarı olan minik avtomobilləri, platin və qızılın hər qramı, almazın 1 karatı üçün aksiz dərəcələri 2-3 dəfə artırılıb. Vergi Məcəlləsində idxal olunan xəz-dəri mallarının aksizli mallara aid edilməklə 10 faiz dərəcə ilə aksizə cəlb edilməsi də təsbit olunub.

> Qəbul edilən dəyişikliklə elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf vergi nəzarətinin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına imkan yaradılacaq

Yəni bu məhsulları alan daha zəngin insanlar daha çox vergi ödəyəcəklər.

**«APA» İnformasiya Agentliyi:**
***- Vergi Məcəlləsinə edilən dəyişikliklərdə elektron ticarətin vergiyə cəlb olunması da nəzərdə tutulub. Bu zaman xarici ölkələrdən alınan xidmətlərə görə ƏDV ödəniləcəkmi?***

S. Ələkbərov:

- Vergilər Nazirliyi elektron ticarətin vergiyə cəlb olunması ilə bağlı dünya təcrübəsini öyrənib. Ölkəmizdə «Elektron ticarət haqqında» Qanuna və Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, elektron qaydada aparılan ticarət, iş və xidmətlərin təqdim edilməsi, habelə elektron qaydada təşkil olunan lotereyalar, digər yarış və müsabiqələrin keçirilməsi ƏDV-yə cəlb ediləcək. Vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən yerli bank, xarici bankın ölkəmizdəki filialları və ya poçt rabitəsinin milli operatoru tərəfindən qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və alıcının hesabından tutularaq büdcəyə ödənilməlidir. Bu dəyişikliklə elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf vergi nəzarətinin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına imkan yaradılacaq. Vergi ödəyicilərinə münasibətdə isə bu günə qədər qayda necə idisə, elə də qalacaq. Yəni sahibkarlar qeyri-rezidentdən alınan işə, xidmətə görə Vergi Məcəlləsinə əsasən vergilər ödəyirlər. Qanuna edilən dəyişikliklər isə vergi ödəyicisi olmayan şəxslərin gördüyü iş və xidmətlərə görə mənbədən verginin tutulmasını nəzərdə tutur.

**«APA» İnformasiya Agentliyi:**
***- Bank hesablarındakı pulun nağdlaşdırılması zamanı 1 faiz verginin tutulması hansı vergi ödəyicilərinə şamil olunacaq?***

S. Musayeva:

- Banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması və nağdsız ödəmələrin stimullaşdırılması məqsədilə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi tutulacaq. Bu, vətəndaşlara deyil, yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə tətbiq olunacaq. Yeni qaydalar həm sadələşdirilmiş, həm də ƏDV ödəyiciləri olan şəxslərin vəsaitlərini banklardan nağd qaydada çıxararkən tətbiq olunacaq.

**«APA» İnformasiya Agentliyi:**
***- Bankların dövlət büdcəsinə nə qədər borcu var və «vergi amnistiyası» onlara da şamil olunacaqmı?***

Natiq Şirinov, Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin rəisi:

- 2017-ci ilin yanvar ayının 1-nə olan rəqəmlərə əsasən, bankların faiz borcları təxminən 2 milyon 190 min manat təşkil edib. Maliyyə sanksiyaları isə təxminən 4,8 milyon manatdır. Qanun bütün vergi ödəyiciləri kimi banklara da şamil olunacaq və onların milyon manata yaxın borcunun silinməsini nəzərdə tutur.

Zeynalabdin Məmmədzadə, Vergi cinayətlərinin təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsinin rəisi:

- Dövlət başçısının təşəbbüsü ilə qəbul edilmiş «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanun sahibkarlığın inkişafının stimullaşdırılması və vergi yükünün optimallaşdırılması məqsədini daşıyır. Qanun layihəsində vergi borcları - vergilər, faizlər və maliyyə sanksiyaları üzrə müəyyənləşdirilib. Qanunda vergi ödəyicilərinin vergilər üzrə borclarının əsas məbləğinin silinməsi nəzərdə tutulmayıb. Faiz və maliyyə sanksiyalarının isə iki qaydada - birdəfəyə qeyd-şərtsiz və müəyyən şərtlər daxilində mərhələli şəkildə silinməsi nəzərdə tutulur. Vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlərin və Vergi Məcəlləsinin 58.7-ci maddəsində nəzərdə tutulan nağd əməliyyatların aparılması qaydalarının pozulmasına görə maliyyə sanksiyalarının 2017-ci ilin 1 yanvar vəziyyətinə istisnasız olaraq silinəcək. Digər maliyyə sanksiyaları isə müəyyən ardıcıllıqla və aşağıda göstərilən şərtlər daxilində silinəcək. Maliyyə sanksiyaları üzrə borcların 2017-ci ilin yanvar ayı ərzində 30 faizi ödənilərsə yerdə qalan borcların 70 faizi, yanvar və fevral ayları ərzində maliyyə sanksiyaları üzrə borcların 50 faizi ödənilərsə, yerdə qalan borcların 50 faizi və yanvar, fevral və mart ayları ərzində borcların 70 faizi ödənilərsə, yerdə qalan 30 faizi silinəcək. Bu qanun fəaliyyət sahəsindən asılı olmayaraq, bütün vergi ödəyicilərinə şamil edilir.



S. Ələkbərov:

- Əlavə etmək istərdim ki, təxminən 44 min vergi ödəyicisi «vergi borclarının tənzimlənməsi haqqında» Qanundan yararlana biləcəklər. Borcun silinməsi üçün vergi ödəyicisinin vergi orqanına müraciət etməsinə ehtiyac olmayacaq. Çünki hazırda ölkəmizdə vergi inzibatçılığı elə səviyyədədir ki, haqqında danışdığımız proseslər elektron qaydada, avtomatik rejimdə həyata keçirilir. Vergi ödəyicilərinin bu məsələ ilə bağlı hər hansı sualı yaranarsa, onlar vergi orqanlarına, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə, «195» Çağrı Mərkəzinə zəng edə bilərlər.

**«Fins» İnformasiya Agentliyi:**
***- Dəyişikliklərdən sonra spirtli içkilərin satışı necə həyata keçiriləcək?***

S. Musayeva:

- Aksizli malların dövriyyəsi ilə bağlı qaydalara edilən dəyişikliklərə əsasən, pərakəndə satışda aksizli malların dəyərinin nağdsız qaydada qəbul edilməsi tələbi aradan qaldırılıb. Lakin qanunda malı istehsal binasından çıxaran istehsalçı, topdan satan şəxs və tədarükçü sahibkarlar arasında aparılan ödənişlərin nağdsız olması əsas tələb kimi nəzərdə tutulub. Yalnız istehlakçı ilə hesablaşma mərhələsində ödənişin nağdsız qaydada olmasına dair tələb yoxdur. Bununla bağlı Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə də dəyişikliklər edilib. Çünki həmin qaydaların pozulması cinayət və inzibatı xəta hesab olunur.

> Qanunda malı istehsal binasından çıxaran istehsalçı, topdan satan şəxs və tədarükçü sahibkarlar arasında aparılan ödənişlərin nağdsız olması əsas tələb kimi nəzərdə tutulub. Yalnız istehlakçı ilə hesablaşma mərhələsində ödənişin nağdsız qaydada olmasına dair tələb yoxdur

**«Fins» İnformasiya Agentliyi:**
***- Vergi ödəyiciləri tərəfindən aparılan hesablaşmaların nağdsız qaydada həyata keçirilməsi prosesi necə tənzimlənəcək?***

S. Musayeva:

- ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən hesablaşmaların nağd qaydada aparılması ay ərzində 30 min manatadək, 200 min manatdan az olan vergi ödəyiciləri tərəfindən isə ay ərzində 15 min manatadək həyata keçirilə bilər. Bu məbləğlərdən çox olan hesablaşmalar isə yalnız nağdsız formada aparılmalıdır.

N. Şirinov:

- Nağdsız qaydada hesablaşmalar bir sahibkarın digər sahibkarın bank hesabına nağdsız qaydada ödəniş həyata keçirməsini nəzərdə tutur. «Nağdsız hesablaşmalar haqqında» Qanunda bu cür hesablaşmaların 3 forması müəyyən edilib. Bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə və ödəniş vasitələri ilə həyata keçirilən hesablaşmalar, ödəniş terminalları ilə həyata keçirilən hesablaşmalar və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar. Qanunda hər iki tərəf sahibkar olarsa, hesablaşma formasının necə həyata keçirilməli olduğu göstərilir. Yəni bir sahibkar digər sahibkarın bank hesabına nağd vəsait yerləşdirə bilməz.

S. Ələkbərov:

- Onu da diqqətinizə çatdırmaq istərdim ki, bu qaydalar yalnız sahibkarlara, vergi ödəyicilərinə aiddir və vətəndaşlara şamil olunmur. Digər tərəfdən, vətəndaşlar tərəfindən də ödənişlərin nağdsız qaydada aparılması üçün ölkəmizdə hər cür şərait var, 75 mindən artıq POS-terminal quraşdırılıb. Düzdür, banklarda baş verən bəzi proseslər POS-terminalların sayının bir qədər azalmasına səbəb olub, amma 75 min POS-terminalın olması da kifayətdir. Əgər əlavə POS-terminallara ehtiyac yaranarsa, bu da təmin edilə bilər. Ölkə üzrə istifadədə 5 milyondan çox bank kartı var. Bütün bunlara baxmayaraq, təəssüf ki, nağdsız ödənişə keçidlə bağlı insanlarımızda vərdiş yoxdur. Dünyanın bir çox ölkələrində nağdsız hesablaşmalar çox rahat həyata keçirilir. Bir çox ölkələrdə nağd alınan mallara görə limit də tətbiq edilir. Nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi bütün sahələrdə şəffaflığın təmin olunmasının, bir çox neqativ halların aradan qaldırılmasının əsas şərtlərindən biridir. Dünyanın əksər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri bu qaydalardan geniş istifadə edirlər və biz də buna keçməliyik.

**Davamı 3-cü səhifədə**

# Vergi Məcəlləsinə edilən dəyişikliklər vergi yükünün azaldılmasına şərait yaradacaq

Əvvəli 2-ci səhifədə

**«Cümhuriyyət» qəzeti:**
***- Binə və Sədərək ticarət mərkəzlərində işləyən şəxslər hər ay müəyyən vəsait ödədiklərini, bununla yanaşı, vergi də tələb olunduğunu bildirirlər. Bu, nə dərəcədə düzgündür?***

S. Ələkbərov:

- Hansı ödənişlərdən söhbət getdiyini açıqlamasanız da, birmənalı olaraq bilmək lazımdır ki, onların dövlət tərəfindən müəyyən edilmiş vergilərə aidiyyəti ola bilməz. İstər ticarət mərkəzi olsun, istər bank, sığorta şirkəti, yaxud fiziki şəxs: gəlir, mənfəət əldə edirsə, dövlətin vergisini ödəməyə borcludur. Bu, Azərbaycan Respublikasının Konstitusiyasının 73-cü maddəsində təsbit olunmuş tələbdir. Əlbəttə, biz çox istərdik ki, vergi mədəniyyəti o səviyyəyə çatsın ki, vergilər vergi ödəyiciləri tərəfindən könüllü ödənilsin. Vergi orqanları vergi toplamaqla məşğul olmasınlar, yalnız vergi qanunvericiliyinə əməl edilməsinə nəzarəti həyata keçirsinlər. Biz buna doğru gedirik. Bu gün vergi sistemində çox ciddi dəyişikliklər baş verir və yaxın aylarda siz bunun real nəticələrinin şahidi olacaqsınız.

**«Report» İnformasiya Agentliyi:**
***- Bəzi sahibkarlar Məcəlləyə dəyişikliklər zamanı onların müzakirələrə cəlb edilməməsindən narazılıqlarını bildirirlər. Dəyişikliklər edilən zaman sahibkarlarla məsləhətləşmələr aparılıbmı?***

S. Ələkbərov:

Vergilər Nazirliyi Məcəlləyə dəyişikliklərlə bağlı çoxlu saylı müzakirələr, dinləmələr keçirib, «AmCham», Azərbaycan Sahibkarlar Konfederasiyası və digər sahibkarlıq təşkilatları ilə görüşlərimiz, müzakirələrimiz olub. Vergilər Nazirliyinin rəsmi mətbu orqanı olan «Vergilər» qəzetində bir neçə ay ərzində ayrı-ayrı sahibkarların dəyişikliklərlə bağlı rəy və təkliflərini əks etdirən silsilə yazılar dərc olunub.

Nazirliyin rəsmi internet saytında sahibkarlara öz təkliflərini təqdim etmələri üçün xüsusi bölmə də yaradılıb. Bizim saytımıza il ərzində 3 milyondan çox daxilolma qeydə alınır. 2016-cı ilin 11 ayı ərzində vergi orqanlarına 80 mindən çox müraciət daxil olmuşdur ki, bu müraciətlərin də böyük bir qismində qanunvericiliyə dəyişikliklərlə bağlı təkliflər vardı. Bundan əlavə, vergilər nazirinin hər ay ərazilərdə vətəndaşlarla görüşləri keçirilir. Həmin görüşlərdə də vergi ödəyicilərindən müxtəlif təkliflər daxil olur. Yəni vergi ödəyicilərinin rəy və təkliflərini vergi orqanına təqdim etməsi üçün hər cür imkan yaradılıb.Yəqin ki, Vergi Məcəlləsində hansısa dəyişikliklər gələcəkdə də olacaq. Biz bundan sonra da sahibkarlarımızla görüşlər keçirməyə, müzakirələr aparmağa, onların fikirlərini dinləməyə, nəzərə almağa hazırıq və yerlərdə də belə görüşlərin keçirilməsi nəzərdə tutulur.

**«Report» İnformasiya Agentliyi:**
***- Məcəlləyə edilmiş dəyişikliklərdən biri idman mərc oyunlarından əldə olunan uduşların vergidən azad olunmasıdır. İdman mərc oyunlarına güzəştlərin tətbiq edilməsi digər vergi tətbiq olunan sahələrə qarşı ədalətsizlik hesab edilə bilərmi?***

S. Musayeva:

- Dövlət bu sahənin inkişafını stimullaşdırmaq üçün müəyyən güzəştlər edib. Amma idman mərc oyunlarının operatoru, satıcısı Vergi Məcəlləsinə əsasən müəyyən edilmiş dərəcələrlə vergiləri hesablayıb ödəyirlər. Sadəcə, uduşu əldə edən şəxsdən vergi mənbədən tutulur. Yəni idman mərc oyunları vergidən azad deyil.

S. Ələkbərov:

- Hər bir güzəşt konkret məqsəd daşıyır. Hansısa bir sahənin inkişafı, dirçəlməsi üçün, orada çalışan insanlara dəstək məqsədilə güzəştlər edilir. Amma bir qayda olaraq bu, müvəqqəti xarakter daşıyır. Dünyanın heç bir yerində heç vaxt güzəştlərin verilməsi vergi daxilolmaları baxımından əlverişli hesab edilməsə də, bu praktikadan bir çox ölkələrdə istifadə olunur. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdə də yuxarıda qeyd etdiyimiz kimi kifayət qədər vergi güzəştləri nəzərdə tutulub və onlar sahibkarlarımızın vergi yükünün azaldılması, onların sərəncamında daha çox vəsait qalması və vergi ödəyicilərinin öz fəaliyyətlərini genişləndirmələrinə şərait yaradılması məqsədini daşıyır.

**«İnterfax Azərbaycan» agentliyi:**
***- Vergi Məcəlləsinə edilmiş dəyişikliklər 2017-ci ildə vergi daxilolmalarına necə təsir edəcək? Vergi orqanlarının proqnozlarına əsasən hansı həcmdə əlavə vergilərin daxil olması gözlənilir?***

S. Ələkbərov:

- Sahibkarlar üçün daha cəlbedici vergi mühitinin təmin olunması Vergilər Nazirliyinin əsas vəzifələrindən biridir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər dövlət büdcəsinin gəlirlərini artırmaqla bərabər, vergi ödəyicilərinin hüquqlarının qorunması, vergi mühitinin daha da yaxşılaşdırılmasına xidmət edir. Qeyd olunduğu kimi dəyişikliklərin 8 maddəsi vergi yükünün azaldılması və ya vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır. Bu dəyişikliklər təbiidir ki, büdcəyə əlavə vergi cəlb olunmasına deyil, əksinə, həmin istiqamətlər üzrə büdcəyə vergi daxilolmalarının azalmasına gətirib çıxaracaq. Aparılan vergi siyasəti ona hesablanıb ki, həm də əlavə mənbələr hesabına vergi bazası genişləndirilsin və vergi daxilolmaların həcmi artırılsın.

Vergilər Nazirliyinin 2016-cı ildə dövlət büdcəsi qarşısında proqnoz tapşırığı 7 milyard 10 milyon manat müəyyən edilib. Vergi orqanlarının gərgin əməyi sayəsində bu ilki proqnoza tam əməl olunub. 2017-ci il üçün proqnoz tapşırığı 7 milyard 510 milyon manatdır. Müqayisə üçün təxminən 15 il əvvəlki rəqəmləri xatırlatmaq istərdim. Nazirlik yaradılanda ölkə üzrə cəmi 510 milyon manat məbləğində vergi ödənilirdi. Ötən illər ərzində ölkədə aparılan iqtisadi islahatlar nəticəsində baş verən iqtisadi dəyişikliklər vergi daxilolmalarının həcminin əsaslı dərəcədə artmasına səbəb olub, indi təkcə ölkənin regionlarından həmin məbləğdən xeyli artıq vergi daxil olur. Baxmayaraq ki, kənd təsərrüfatı 1999-cu ildən bəri torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azaddır, 2016-cı ildə ərazilərdən büdcəyə 600 milyon manat vergi daxil olub. Bu, regionların hansı səviyyədə inkişaf etdiyinin, buradakı iqtisadi potensialın artdığının göstəricisidir.

İqtisadiyyatımızda mövcud olan müvəqqəti çətinliklər yaxın müddətdə aradan qaldırılacaq. Məlum olduğu kimi bütün sahələr üzrə strateji yol xəritələri hazırlanıb, onların icrası Azərbaycanın daha sürətli inkişafını təmin edəcək. Bu, bir sıra beynəlxalq reytinq agentliklərinin proqnozlarında da öz əksini tapıb. Prosesin daha da sürətləndirilməsi əvvəlki illərdə olduğu kimi iqtisadi inkişafımızın davamlılığının təmin edilməsi üçün hər birimiz daha səmərəli işləməli, fəaliyyətimizi konkret son nəticələrin əldə olunmasına yönəltməliyik.

> İstər ticarət mərkəzi olsun, istər bank, sığorta şirkəti, yaxud fiziki şəxs: gəlir, mənfəət əldə edirsə, dövlətin vergisini ödəməyə borcludur. Bu, Azərbaycan Respublikasının Konstitusiyasının 73-cü maddəsində təsbit olunmuş tələbdir

# Vergilər Nazirliyində bank sektorunun nümayəndələri ilə görüş



Dekabrın 30-da Vergilər Nazirliyində Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, Azərbaycan Banklar Assosiasiyası, banklar və prosessinq mərkəzlərinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərlə bağlı bankların üzərinə düşən öhdəliklərlə bağlı məsələlər müzakirə olunub.

Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov vergi sistemində aparılan islahatlar və həyata keçirilən yeniliklər barədə tədbir iştirakçılarına ətraflı məlumat verərək qeyd edib ki, yaranmış yeni iqtisadi şəraitə uyğun olaraq, biznes mühitinin yaxşılaşdırılması və vergi ödəyicilərinin fəaliyyətinin genişləndirilməsi üçün həm qanunvericilik səviyyəsində, həm də Vergilər Nazirliyinin səlahiyyətləri çərçivəsində müvafiq addımlar atılıb.

S.Məmmədxanov Vergi Məcəlləsinə edilən dəyişikliklər, bu dəyişiklərin bank sektorunun fəaliyyətinə təsiri, nağdsız əməliyyatların həyata keçirilməsi və elektron ticarətə vergi nəzarətinin tətbiqi üçün tələb olunan şərtlər, bankların bu sahədə vəzifə və öhdəlikləri barədə məlumat verib. Bildirilib ki, elektron ticarət sahəsində vergi potensialının düzgün qiymətləndirilməsi üçün Vergilər Nazirliyinin nəzdində Elektron ticarətə nəzarət şöbəsi yaradılıb.

Görüşdə elektron ticarət sahəsində vergitutmaya dair bir sıra məsələlər müzakirə olunub, nağdsız hesablaşmalar sahəsində vergi orqanları ilə banklar və prosessinq şirkətləri arasında əlaqələndirmənin vacibliyi vurğulanıb.

Görüş iştirakçılarını maraqlandıran suallar nazirliyin rəhbər vəzifəli şəxsləri tərəfindən cavablandırılıb.

# 2016-cı ildə vergi daxilolmaları üzrə büdcə tapşırıqları tam həcmdə icra olunub

2016-cı ilin yanvar-dekabr ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 7 milyard 15 milyon 165,4 min manat vəsait ödənilib və Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş illik tapşırıq tam həcmdə yerinə yetirilib.

İl ərzində respublika üzrə 145874 yeni vergi ödəyicisi qeydiyyata alınıb.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi

# Nağdsız ödənişlərin həcminin artırılması zamanın tələbidir

> «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2016-cı il tarixli Qanunu ölkə ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirmək məqsədi daşıyır. Qanun ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minir.



Qanuna əsasən, nağdsız hesablaşma dedikdə, bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə, eləcə də ödəniş vasitələri, ödəniş terminalları və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur. Əgər hər iki tərəf vergi ödəyicisi olarsa, bu zaman onlar arasında hesablaşmalar üzrə nağdsız ödəniş yalnız birinin bank hesabından digərinin bank hesabına köçürülməklə və ödəniş vasitələri ilə həyata keçirilə bilər.

Qanunda göstərilir ki, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri 30.000 manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15.000 manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Qanuna əsasən, aşağıdakı hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilir:

- vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi;
- «Sığorta fəaliyyəti haqqında» və «İcbari sığorta haqqında» Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər;
- dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar;
- stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi;
- faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması;
- dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi);
- təhsil haqlarının ödənilməsi və turagentlərə ödəmələr.

Qeyd olunanlarla yanaşı, Qanuna əsasən, vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən aşağıdakı mallar nağd qaydada satın alına bilər:

- kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu;
- əlvan və qara metal qırıntılarının qəbulu;
- utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu;
- utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulu.

İqtisadçı ekspert Fikrət Yusifov bu addımın atılmasını hesablaşmalarda şəffaflığın təmin edilməsinə, eləcə də vergidən yayınma hallarının qarşısının alınmasına yönəlmiş tədbir kimi qiymətləndirir: «Müasir dövrdə hesablaşmaların nağd formasından nağdsız formaya keçidi mühüm əhəmiyyət kəsb edir. Bu mənada, ticarət və ictimai iaşə müəssisələri üçün hesablaşmaların yeni qaydasının tətbiqi tədqirəlayiqdir. Hesab edirəm ki, tədricən hesablaşmaların nağd formada aparılması ən minimal səviyyəyə qədər azaldılmalıdır. Nağdsız hesablaşmalar həm də ödənişlərin həyata keçirilməsində vətəndaşlar üçün çox uyğun və sərfəlidir».

İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramovun rəyinə görə, nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması Azərbaycan iqtisadiyyatının gündəliyində duran ən mühüm məsələlərdəndir: «Burada əsas məqsəd pul dövriyyəsinə daxil olan nağd pulun həcmini azaltmaq və nağdsız hesablaşmaları təşviq etməkdir. Beynəlxalq praktikada belə fəaliyyətlər, adətən, qısamüddətli dövrü əhatə edir, nağdsız hesablaşmalar inkişaf etdikdən sonra bu qaydalar yenidən aradan qaldırılır. Bu baxımdan, Azərbaycanda da tətbiq edilən praktika postneft dövrü üçün nəzərdə tutulur. Bu zaman, təbii ki, çox vacib məqamlardan biri məhz ikili mühasibatın ləğvi ilə bağlı aparılan fəaliyyətlərin genişləndirilməsidir. Müşahidələr göstərir ki, nağdsız hesablaşmalara mane olan səbəblərdən biri məhz budur. Ona görə də yeni qaydalara uyğun olaraq, nağdsız hesablaşmaların genişləndirilməsi üçün müəssisə və təşkilatlar arasında hesablaşmaların köçürmələr formasında və daha şəffaf aparılmasının təşkili vacibdir. Bu isə son nəticədə nağd ödənişlərin mərhələli şəkildə nağdsız hesablaşmalarla əvəzlənməsinə gətirib çıxara bilər».

> Qanunda göstərilir ki, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri 30.000 manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15.000 manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir

**Fəxriyyə İKRAMQIZI**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Departamentinin Baş Direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Əlavə dəyər vergisi

***Elektron ticarət qaydasında qeyri-rezident şəxsdən mal alınarkən köçürülən məbləğə ƏDV hesablanırmı?***

Vergi Məcəlləsinin 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş 169.1-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində bu Məcəllənin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsini yerinə yetirirsə), Məcəllənin XI fəslinin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi vergiyə cəlb olunur.

Vergi Məcəlləsinin 169.3-cü maddəsində göstərilir ki, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən bu maddə ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.

Elektron ticarət qaydasında işlərin və xidmətlərin alıcısı, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin iştirakçısı vergi orqanlarında uçotda olmayan şəxs olduqda, ödənişi aparan yerli bank və ya xarici bankın Azərbaycan Respublikasındakı filialları tərəfindən hesablanan ƏDV alıcının vəsaiti hesabına büdcəyə ödənilir. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış yerli bank və ya xarici bankın Azərbaycan Respublikasındakı filialları tərəfindən vergi orqanlarında uçotda olmayan şəxsdən tutulmuş ƏDV əvəzləşdirilmir.

Qeyd olunanlara əsasən: Vergi Məcəlləsinin 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş müddəalarına görə, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən qeyri-rezidentdən elektron ticarət qaydasında işlərin və xidmətlərin alınmasına görə aparılan ödənişlərdən ƏDV hesablanmalı və ödənilməlidir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan vətəndaşlar tərəfindən elektron ticarət qaydasında qeyri-rezident şəxslərdən mallar alınan zaman isə onlara ödənilən məbləğdən ƏDV hesablanmır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Az rbaycanda Ki ik v Orta Sahibkarl q Agentliyi yara

«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji yol xəritəsi»ndə qeyd olunur ki, ölkədə mərkəzləşdirilmiş Kiçik və Orta Sahibkarlıq Agentliyinin yaradılması nəzərdən keçiriləcək, onun məqsəd və missiyası, eləcə də aparıcı prinsipləri müəyyənləşdiriləcək. İlkin mərhələdə agentliyin kollegial orqanı qurulacaq, özəl və dövlət sektorundan, yerli assosiasiyalardan və ali təhsil müəssisələrindən kollegial quruma nümayəndələr seçiləcək. Agentliyin prioritetləri, qısa və uzunmüddətli hədəfləri müəyyən ediləcək, fəaliyyəti üçün zəruri maliyyələşdirmə mexanizmləri işlənib hazırlanacaq və lazımi resursların təmin edilməsi məsələsinə baxılacaq.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması, gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi, biznesin qeydiyyatının asanlaşdırılması, dövlətin maliyyə təminatı əsasında kredit resurslarına çıxış imkanlarının yaxşılaşdırılması kiçik və orta sahibkarlığın (KOS) inkişafında mühüm rol oynayıb. Hazırda bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi və sahibkarların hüquqlarının etibarlı müdafiəsi istiqamətində silsilə tədbirlər həyata keçirilir. Qeyd edilmişdir ki, KOS-un özəl kreditlərlə təminatının yaxşılaşdırılması üçün səmərəli mexanizm hazırlanır. Özəl kredit bürolarının yaradılması, daşınan əmlakın reyestrinin aparılması qaydaları ilə bağlı qanunvericiliyə dəyişikliklər sahibkarların girovla bağlı problemlərinin həllinə səbəb olacaq. Ölkədə sahibkarlığın, xüsusilə də qeyri-neft sektorunun inkişafı sahəsində, eləcə də regionlarda mövcud olan böyük potensial imkanların üzə çıxmasında ABAD mərkəzlərin yaradılması da müsbət rol oynayacaq.

Qarşıdakı illərdə sahibkarlığın inkişafı sahəsində dövlət siyasəti aşağıdakı istiqamətlər üzrə həyata keçiriləcəkdir:

- sahibkarlıq fəaliyyəti ilə bağlı dövlət tənzimləməsinin səmərəliliyinin artırılması;
- kiçik və orta sahibkarların maliyyəyə çıxış imkanlarının daha da artırılması, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin də aktivləşdirilməsi;

> “ Özəl sektorun inkişafının dövlət tərəfindən dəstəklənməsi, vergi qanunvericiliyinin mütəmadi təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması istiqamətində ardıcıl qərarların qəbulu və s. kiçik və orta sahibkarlığın inkişafı üçün münbit şərait yaradır

- KOS-la bağlı kreditlərin sığortalanması mexanizminin formalaşdırılması üçün təkliflərin hazırlanması;
- ölkənin ixrac potensialının artırılmasında KOS-un maraqlarının müdafiəsinin gücləndirilməsi;
- istehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya praktikasında müvəffəqiyyətlə tətbiq olunan təşkilati modellərin (o cümlədən sənaye parkları, biznes-inkubatorlar və s.) yaradılması işlərinin davam etdirilməsi;
- sahibkarlıq subyektlərinin əlverişli biznes mühitindən eyni dərəcədə faydalanması imkanlarını təmin edəcək rəqabət mühitinin formalaşdırılması istiqamətində fəaliyyətin gücləndirilməsi;
- kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi;
- biznes informasiya mərkəzlərində kiçik və orta sahibkarlar üçün məlumatların əlyetərliliyinin artırılması;
- sahibkarlığın istehsal, bazar və sosial infrastruktur təminatının daha da yaxşılaşdırılması.

İqtisad üzrə fəlsəfə doktoru Ədalət Əsədovun sözlərinə görə, kiçik və orta sahibkarlığın davamlı inkişafında vergi siyasətinin rolu mühüm əhəmiyyət kəsb edir. Digər sahibkarlıq strukturlarına nisbətən bu sahədə fəaliyyət göstərən subyektlər az maliyyə sərfiyyatı tələb edir və onlara müəyyən kredit güzəştlərinin verilməsi də mümkündür. KOS-ların fəaliyyətinin təşkili iri həcmli vəsait tələb etmədiyi üçün bu, istər kredit verən təşkilatlar, istərsə də kredit alan tərəf üçün girov, sənədləşdirmə və s. məsələlər baxımından daha sadədir.

Özəl sektorun inkişafının dövlət tərəfindən dəstəklənməsi, vergi qanunvericiliyinin mütəmadi təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması istiqamətində ardıcıl qərarların qəbulu və s. kiçik və orta sahibkarlığın inkişafı üçün münbit şərait yaradır.

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdə bu sahibkarlıq subyektlərinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı kifayət qədər optimallaşdırma tədbirləri, eləcə də vergi yükünün azaldılmasına yönəlmiş səmərəli siyasət sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə təminat verir. Hazırda qarşıda duran vacib məsələlərdən biri vergi ödəyiciləri olan KOS subyektlərinin məcburi sosial sığorta ayırmaları ilə bağlıdır. Vergi ödəyicilərinə aid sosial sığorta ayırmalarının daha da təkmilləşdirilməsi və ədalətli təyini zəruridir. Hazırda pərakəndə ticarət və nəqliyyat xidməti ilə məşğul olan vergi ödəyiciləri üçün aylıq məcburi sosial sığorta ödənişi 52,50 manatdır. İndiki halda iri topdan və ya pərakəndə ticarətlə məşğul olan sahibkarla 10-15 $m^2$-lik sahəsi olan ticarət obyektində fəaliyyət göstərən sahibkar arasında fərq qoyulmur. Məcburi sosial sığorta ödənişinin bu cür tətbiqi ədalətli hesab edilə bilməz. Eyni vəziyyətin hökm sürdüyü xidmət sahələrində də müvafiq təkmilləşdirmələrə ehtiyac vardır. Məsələn, şadlıq sarayı kimi fəaliyyət göstərən sahibkarla kiçik bir köşkdə qutab, dönər satan və ya adi çayxana fəaliyyəti göstərən sahibkar arasında da sosial ayırmalar zamanı fərq qoyulmur: hər iki halda minimum əməkhaqqının 20%-i, yəni 21 manat sosial sığorta ayırması tələb edilir. Mövcud qaydalara əsasən, işçiyə verilən əməkhaqqının 22%-i müəssisənin (sahibkarın) əməkhaqqı fondundan, 3%-i isə işçidən tutulur. Bu isə işçilərə verilən əmək haqlarının düzgün göstərilməməsinə, əksər hallarda işəgötürənlə işçi arasında əmək müqaviləsinin bağlanmamasına gətirib çıxarır və ya ödənilən məbləğdən aşağı məbləğ rəsmiləşdirilir ki, nəticədə ikili mühasibat formalaşır.

Ə.Əsədovun sözlərinə görə, KOS-un inkişafı, biznes mühitinin sağlamlaşdırılması, eləcə də müşahidə olunan bəzi ziddiyyətlərin aradan qaldırılması üçün stimullaşdırıcı tədbirlərlə yanaşı, qanunvericilikdə də təkmilləşdirmələr aparılmalıdır.

**ELBRUS**

# Vergi Məcəlləsinə dəyişikliklər zamanın tələbidir

«PwC Azərbaycan» şirkəti Vergi Məcəlləsinə dəyişikliklərə dair mətbuat konfransı keçirib. Şirkətin vergi və hüquq məsələləri üzrə partnyoru Maykl Ahern Məcəlləyə edilmiş dəyişikliklərin mühüm əhəmiyyət kəsb etdiyini, müasir iqtisadi çağırışlara cavab verdiyini bildirib. Qeyd edib ki, Azərbaycan öz vergi sistemində dünya ölkələrinin tətbiq etdiyi ən müasir qabaqcıl texnologiyaları və yenilikləri tətbiq edir, ölkənin vergi administrasiyası OECD və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edərək vergi inzibatçılığını daim təkmilləşdirir. Dünya iqtisadiyyatında baş verən tendensiyalarla ayaqlaşmaq üçün vergi sistemində islahatların aparılması zərurətinin meydana çıxdığını vurğulayan M.Ahern Vergi Məcəlləsinə edilmiş dəyişiklikləri qlobal və ölkə iqtisadiyyatında baş verən proseslərə uzlaşdırılmış davamlı islahatların nəticəsi hesab etdiyini bildirib.

Məcəlləyə edilmiş dəyişikliklər sırasında elektron ticarətin vergiyə cəlb olunması, transfer qiymətləndirmə, vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə hüquqlardan sui-istifadə əleyhinə müddəaların vergi qanunvericiliyinə daxil edilməsini pozitiv addımların atıldığı qeyd edilib.

# Təcrübəli əməkdaşlar təlimçi kimi fəaliyyət göstərəcəklər

Vergilər Nazirliyi yanında Tədris-Metodiki Şuranın iclasında 2016-cı il ərzində tədris və təlim sahəsində görülmüş işlər, müasir beynəlxalq təcrübə nümunələrinin tədris prosesində tətbiqi imkanları, 2017-ci il üçün tədris qrafikinin və tədris-mövzu planlarının layihələri, habelə bu sahədə qarşıya çıxan çətinliklər və onların həlli yolları müzakirə edilmişdir.

Qeyd olunmuşdur ki, bu il təşkil edilmiş 151 təlim və kursa ümumilikdə 4584 nəfər dövlət vergi orqanı əməkdaşı cəlb edilmişdir. Təlim və kursların 69-u onlayn formada keçirilmiş və bu təlimlərdə 2849 nəfər iştirak etmişdir. İl ərzində 784 nəfər vergi orqanı əməkdaşı sertifikasiya təlimlərinə qatılmış, onlardan 444 nəfəri sertifikat almışdır. 2016-cı ildə elektron kitabxanadan 23.472 nəfər istifadə etmişdir (2015-ci ildə bu rəqəm 13.554 olmuşdur).

Tədbirdə 2017-ci ildə rəhbər vəzifəli şəxslər üçün idarəetmə sahəsində təlimlərin sayının artırılması və həmin təlimlərə kənardan peşəkar mütəxəssislərin dəvət olunması, təlimçilərin həvəsləndirilməsi məsələsinə yenidən baxılması, qısamüddətli, habelə onlayn təlimlərə cəlb edilən təlimçilərin stimullaşdırılması qərara alınmışdır. Bundan əlavə, gələn ildən müvafiq fəaliyyət sahələri üzrə əməkdaşların bilik və bacarıqlarının könüllü sertifikatlaşdırılmasına başlanılması, pensiyaya çıxmış təcrübəli və peşəkar əməkdaşların təlimçi qismində təlimlərə cəlb edilməsi imkanlarının araşdırılması da nəzərdə tutulur.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş strateji məqsədlərə nail olunması nəticəsində Azərbaycanda real ÜDM-in **400 milyon** birbaşa və **205 milyon** dolayı olmaqla, ümumilikdə **605 milyon** manat artacağı və **10 min 900** birbaşa və **8 min** dolayı olmaqla 18 min 900 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.
- «Strateji yol xəritəsi» çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrası üçün təxminən **3 milyard 160 milyon** manat investisiya vəsaitinin tələb olunacağı proqnozlaşdırılır.
- 2017-ci ilin yanvar ayının 1-nə olan məlumata əsasən, Azərbaycanın **21,9** ton qızıl-valyuta ehtiyatı var. Beynəlxalq Valyuta Fondunun açıqladığı statistikaya görə, ümumilikdə, Azərbaycanın strateji valyuta ehtiyatlarının **12,8%**-i qızıl ehtiyatının payına düşür.
- Ötən il BTC kəməri ilə **28,8 milyon** ton Azərbaycan nefti nəql olunub.
- Yaxın üç il ərzində Sumqayıtda investisiya dəyəri **1 milyard** avrodan çox olan metallurgiya kompleksi tikilib istifadəyə veriləcək.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən fevralın 7-də keçiriləcək yeni hərraca **95** əmlak çıxarılıb. Hərracda **20** səhmdar cəmiyyəti, **62** kiçik dövlət müəssisəsi və **13** istifadəsiz qeyri-yaşayış sahəsini özəlləşdirmək təklif olunacaq.

# Ağır sənayenin inkişafı iqtisadi islahatların prioritetlərindəndir

«Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji yol xəritəsi»nə əsasən, 2020-ci ilədək ağır sənaye və maşınqayırma müəssisələrinin daxili iri istehlakçılarının ehtiyaclarının daha böyük hissəsinin ödəmələrinə nail olmaq, regional bazarda Azərbaycan məhsullarının payını artırmaq vəzifəsi qoyulmuşdur. Mədənçıxarma (neft-qaz sektoru istisna olmaqla), metallurgiya, bəzi tikinti materialları (məsələn, sement) istehsalı, neft-qaz və kənd təsərrüfatı maşınqayırması kompleksi, elektrik avadanlıqlarının istehsalı, maşınqayırma sektorunda xidmət müəssisələrinin fəaliyyətinin inkişafı kimi sahələr ağır sənaye və maşınqayırma sektorunun prioriteti kimi götürüləcək.

Qəbul edilmiş strategiyanın reallaşdırılması sənayenin strukturunu təkmilləşdirəcək, ağır sənaye və maşınqayırmanın sənayedə və məşğulluqda payı artacaq, qeyri-neft sənayesi iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevriləcək, ümumi iqtisadi potensial 2020-ci ildən sonrakı dövr üçün nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması üçün hazır vəziyyətə gətiriləcək.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov «Strateji yol xəritəsi»ndə bu sahə üzrə yeni baxış ortaya qoyulduğunu bildirmişdir: «Azərbaycan dövləti ağır maşınqayırmaya, xüsusən də maşınqayırmanın ixrac qabiliyyətinin genişləndirilməsinə bir prioritet kimi yanaşır. İxrac imkanlarının genişləndirilməsi fonunda maşınqayırma sənayesi ölkəyə valyuta axınını təmin edə biləcək. Bu baxımdan, strateji hədəf olaraq yeni bazarların tapılmasına və onlara çıxış imkanlarının artırılmasına ehtiyac var. Bu strategiya, eyni zamanda, idxaldan asılılığın aradan qaldırılması baxımınından da vacibdir. Güman ki, bu istiqamətdə də addımlar atılacaq. Çünki ağır maşınqayırma inkişaf etdikcə yerli məhsulun istehsalının artması idxal məhsullarına tələbi azaldacaq və nəticədə idxaldan asılılığın mərhələli şəkildə aşağı enməsi müşahidə olunacaq. Bu, həm də yeni iş yerlərinin yaradılmasına müsbət təsir göstərəcək».

> İxrac imkanlarının genişləndirilməsi fonunda maşınqayırma sənayesi ölkəyə valyuta axınını təmin edə biləcək



Sektorun müqayisəli üstünlüyü və məhsulların xarici bazarlara çıxarılma imkanları barədə qeyd edilmişdir ki, bu, qeyri-neft sektoruna ixrac qabiliyyətini artırmaq imkanı verir: «Sektoral təşviq ölkənin ixrac qabiliyyətinin artırılmasına rəvac verə bilər. Rusiya, Qazaxıstan və regionun digər ölkələri nəinki sovet dövründə, indinin özündə də Azərbaycan üçün iri bazardır. Bu baxımdan, respublikamızın ağır sənaye məhsullarını region ölkələrinə ixrac etmək imkanları yüksəkdir. Regional bazara çıxış isə ölkəyə valyuta daxilolmasını təmin etmək baxımından vacibdir».

**FƏXRİYYƏ**

# Dövlət orqanlarının elektron xidmətləri və informasiya sistemləri qiymətləndiriləcək

«Dövlət orqanlarında elektron xidmətlərin və informasiya sistemlərinin qiymətləndirilməsi Qaydaları» dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi, habelə informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmənin aparılması prosedurlarını tənzimləyir. Qiymətləndirmənin aparılmasında məqsəd elektron xidmətlərin təşkili və göstərilməsi üçün zəruri informasiya mənbələrini müəyyən etmək, informasiya sistemlərinin yaradılması zamanı onların təsdiq olunmuş layihələrə, texniki normalara, standartlara və tələblərə uyğun həyata keçirilməsinə nəzarət etmək, dövlət orqanlarının informasiya sistemlərinin qarşılıqlı inteqrasiyasını təmin etmək, dövlət xidmətlərinin göstərilməsi prosedurunun sadələşdirilməsi imkanlarını araşdırmaq, elektron xidmətlərin təşkili prosesini sürətləndirmək, dövlət orqanlarının fəaliyyətində şəffaflığı təmin etmək, bu sahədə modern və çevik idarəetmənin təmini imkanlarını araşdırmaqdır.

Qiymətləndirmə üç mərhələdə həyata keçiriləcək. Birinci mərhələ məlumatların toplanılması, sorğuların göndərilməsi, yerində baxışın həyata keçirilməsi və informasiya sistemləri üzərindən xidmətlərin test edilməsindən ibarətdir. İkinci mərhələdə toplanmış məlumatlar sistemləşdirilərək yoxlanılacaq və təhlil ediləcək. Sonuncu mərhələdə isə arayış və hesabatlar hazırlanacaq.

Qiymətləndirmənin başlamasına ən azı 15 gün qalmış Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəsmi saytında bu barədə məlumat yerləşdiriləcək və rəsmi məktubla dövlət orqanlarına bildiriş göndəriləcək. Dövlət orqanları qiymətləndirmənin keçirilməsi üçün şərait yaratmalı, tələb olunan məlumatları təqdim etməli, sorğuları cavablandırmalı və qiymətləndirmənin aparılmasına maneə törətməməlidir.

**Qiymətləndirmənin keçirilməsi üçün agentlik tərəfindən yaradılacaq işçi qrupa müstəqil ekspertlər və mütəxəssislər cəlb ediləcək**

Dövlət orqanlarında elektron xidmətlərin və informasiya sistemlərinin qiymətləndirilməsi Dövlət Agentliyi tərəfindən təsdiq edilmiş tədbirlər planına uyğun olaraq həyata keçiriləcək. Qiymətləndirmənin keçirilməsi üçün agentlik tərəfindən yaradılacaq işçi qrupa müstəqil ekspertlər və mütəxəssislər cəlb ediləcək. İşçi qrupun səlahiyyətlərinə aiddir:

- elektron xidmətlərin təşkili və göstərilməsi, habelə informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə ilkin qiymətləndirmələri aparmaq;
- yerində baxış keçirmək, qiymətləndirmənin nəticələrini ümumiləşdirmək və toplanmış məlumatları təhlil etmək;
- elektron xidmətlərin və informasiya sistemlərinin təşkili və təkmilləşdirilməsi məqsədilə təkliflər hazırlamaq;
- qiymətləndirmənin yalnız təsdiqlənmiş qaydalarla nəzərdə tutulmuş parametrlərə və meyarlara uyğun aparılmasını təmin etmək;
- qiymətləndirmənin nəticələri barədə arayış və hesabatlar hazırlayıb Dövlət Agentliyinin sədrinə təqdim etmək;
- əldə olunan informasiyanın konfidensiallığını təmin etmək.

Qiymətləndirmə meyarlar və parametrlər üzrə müvafiq göstəricilərə (indikatorlara) əsasən həyata keçiriləcək və elektron xidmətlər üzrə qiymətləndirmənin aparılması üçün hər bir meyar üzrə maksimum qiymətləndirmə balı müəyyən olunacaq. İnformasiya sistemləri üzrə qiymətləndirmənin aparılması üçün hər bir parametrin təmin edilməsi (1 bal), yaxud təmin edilməməsi (0 bal) müəyyən olunacaq. Qiymətləndirmədə 50% və bundan aşağı qeyri-kafi, 51%-dən 70%-dək kafi, 71%-dən 90%-dək yaxşı, 91%-dən 100%-dək əla hesab edilir.

Qiymətləndirmənin nəticəsi olaraq, Dövlət Agentliyi tərəfindən:

- qiymətləndirmə nəticəsində müəyyən olunmuş çatışmazlıqların aradan qaldırılması ilə bağlı icrası məcburi olan tövsiyələr veriləcək, ehtiyac yarandıqda əməli və metodiki kömək göstəriləcək;
- qiymətləndirmə ilə bağlı hazırlanmış arayış aşkar olunmuş çatışmazlıqların təyin edilmiş müddət ərzində aradan qaldırılması üçün dövlət orqanına göndəriləcək;
- qiymətləndirmənin nəticələri, o cümlədən informasiya sistemlərinin və elektron xidmətlərin mövcud vəziyyəti, problemlər, nöqsanlar və həmin xidmətlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər barədə dövlət başçısına hesabat təqdim olunacaq.

Dövlət orqanları təqdim edilmiş arayışda göstərilən çatışmazlıq və tövsiyələri diqqətlə araşdırmalı və arayış daxil olduğu gündən iki ay müddətində çatışmazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər barədə məlumatı Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim etməlidirlər. Qiymətləndirmənin nəticələri ilə bağlı məlumatlar agentliyin rəsmi internet saytında yerləşdiriləcək.

**AYTƏN**

# «ASAN Viza» biznesin inkişafına təkan verəcək

**Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən hazırlanmış «ASAN Viza» portalı 2017-ci il yanvarın 10-dan tam istifadəyə verilib**

Portalın texniki imkanlarının genişlənməsi xarici ölkə vətəndaşlarına bürokratik maneə olmadan viza almağa imkan yaradacaq. «ASAN Viza» vasitəsilə əcnəbilər evlərindən çıxmadan, növbə gözləmədən, sənədlər toplamadan onlayn şəkildə müraciət edərək viza ala biləcəklər. Ölkədə qalma müddətini 30 günədək müəyyən edən birdəfəlik elektron vizanı almaq üçün portala müraciət edən şəxs ödəniş etdikdən sonra viza 3 iş günü müddətində onun elektron poçt ünvanına göndəriləcək. Viza üçün dövlət rüsumu 20 ABŞ dollarıdır. Bu rüsum vizaya baxılması üçün tələb olunur və geri qaytarılmır. Elektron viza müraciətlərinin bir nəfərlik, ailə (ən az 2, ən çox 10 nəfər) və qrup şəklində (ən az 10, ən çox 300 nəfər) edilməsi nəzərdə tutulur. İndiyə kimi "ASAN Viza portalından 500-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan şəxs elektron viza əldə edib.




Mütəxəssislər hesab edirlər ki, elektron viza iqtisadi, siyasi, sosial, hüquqi, humanitar sahələrdə əməkdaşlığın möhkəmlənməsi, işgüzar əlaqələrin genişlənməsi və biznes nümayəndələrinin xarici ölkələrdəki tərəfdaşları ilə daha çevik partnyorluğunun qurulması üçün yaxşı imkanlar yaradır. Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyevin sözlərinə görə, Azərbaycan hökuməti Avropa Birliyi ölkələri ilə inteqrasiyanı dərinləşdirərək ikitərəfli əlaqələrin inkişafına xidmət edən bir sıra mühüm sənədlər imzalayıb. İki il əvvəl tərəflər arasında viza rejiminin sadələşdirilməsinə dair saziş bağlanıb və bu sənəd Beynəlxalq Viza Məcəlləsinə uyğun olaraq, mövcud rejimin xeyli sadələşdirilməsinə hüquqi baza yaradıb. Bu, Azərbaycandan Avropaya və əks istiqamətə gediş-gəlişin asanlaşmasına, bir sıra güzəştlərin tətbiqinə əlverişli imkanlar yaradır. Azərbaycanlı iş adamları e-vizadan qarşılıqlı investisiyaların yatırılması və həcminin artırılması, yeni iqtisadi layihələrin icrasına başlanılması, ticarət, azad iqtisadi zonalar çərçivəsində birgə layihələrin həyata keçirilməsi üçün yararlana bilərlər.

Mütəxəssisin sözlərinə görə, ölkəmizdə elektron viza sisteminin qurulması və tətbiqi ilə bağlı hüquqi-texniki baza yaradılıb və sistemin işə düşməsi üçün heç bir əngəl yoxdur. Dövlət başçısının müvafiq sərəncamı əsasında həyata keçirilən viza rejiminin sadələşdirilməsi ilə bağlı texniki tədbirlər başa çatmaq üzrədir. Ölkəmizin dövlət sərhəd-keçid məntəqələrində müasir informasiya texnologiyalarına əsaslanan idarəetmə sistemi qurulub, vətəndaşların təhlükəsizliyinə şərait yaradan yüksək səviyyədə tədbirlərin görülməsi üçün infrastruktur mövcuddur.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun əməkdaşı Vidadi Quliyevin sözlərinə görə, e-viza qarşılıqlı ticarət əməliyyatlarının artmasına, yerli sahibkarların xarici bazarlara çıxışına əlverişli şərait yaradacaq. Yeni viza sisteminin tətbiqi Azərbaycanda çalışmaq və investisiya qoymaq istəyən əcnəbi iş adamlarının ölkəyə gəlişini asanlaşdıracaq. Mövsümi xarakterli işlərə, biznesə, sərmayə axtarışlarına və digər sahələrə maraq göstərən xarici ölkə vətəndaşlarının Azərbaycana böyük həcmdə sərmayə sərf etməsi gözlənilir. Onların fəaliyyətini leqallaşdıran miqrasiya və sosial müdafiə xidməti orqanları Azərbaycan büdcəsinə vergi və rüsumların ödənilməsini təmin edəcəklər.

Azərbaycan Turizm Assosiasiyasının sədr müavini Müzəffər Ağakərimovun fikrincə, yeni viza rejimi əcnəbi turistlərin Azərbaycana gəlmək üçün diplomatik korpusa getməsinə, sənədlərin hazırlanmasına ehtiyacı aradan qaldıracaq. Ölkəmizə gəlmək istəyən şəxslər internet vasitəsilə elektron ərizə və digər sənədlərin formalarını müvafiq orqanlara göndərməklə qısa müddətdə viza əldə edə biləcəklər. Turistlərin sayının çoxalması isə indiki dövrdə qeyri-neft sektorunun əsas sahələrindən sayılan turizmin inkişafı ilə ölkəmizə valyuta axınının artması baxımından mühüm əhəmiyyət kəsb edir.

2016-cı ildə Prezident İlham Əliyevin «Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və «ASAN Viza» sisteminin yaradılması haqqında» fərmanına əsasən, respublikamıza gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir İKT-nin köməyi ilə operativliyi və şəffaflığı təmin edən elektron viza sisteminin yaradılması nəzərdə tutulub. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə («ASAN xidmət») elektron viza verilməsi üçün «ASAN Viza» sistemini yaratmaq və onun idarə olunmasını təmin etmək tapşırılıb.

**E.CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş milli iqtisadiyyatın strateji yol xəritələri Avropa İttifaqı ölkələrinin Azərbaycandakı səfirlərinə təqdim olunub.

Strateji Yol Xəritəsi: Azərbaycan dünyada turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevriləcək.

Həm işgüzar, həm də istirahət məqsədilə ölkəmizə gələn turistlər arasında beynəlxalq tanınmanın növbəti səviyyəsinə çatmaq və Bakı şəhərinin turizm potensialını artırmaq üçün Milli Turizm Təbliğat Bürosu yaradılacaq.

Bu il çəkilişinə başlanılacaq Rəşt-Astara dəmir yolunun istifadəyə verilməsi Azərbaycan ilə İranın dəmir yollarını birləşdirməklə yanaşı, hər iki dövlətin idxal-ixrac əməliyyatlarını, ticarət dövriyyəsini artıracaq.

ABŞ-da dərc olunan məşhur «Forbes» jurnalında «Asiyada kommunikasiyaların bərpası: Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tarixi» sərlövhəli məqalə dərc edilib.

Maliyyə Bazarlarına Nəzarət Palatası və Kənd Təsərrüfatı Nazirliyi özəl sığorta şirkətlərinin iştirakı ilə aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi məqsədilə sığorta fondunun yaradılması imkanlarını araşdırır.

Yaxın zamanlarda Moskvada Azərbaycanın xaricdə ilk ticarət nümayəndəliyi açılacaq.

«The Sunday Times» portalının 2017-ci ildə turistlər üçün təklif etdiyi ölkələr sırasında Azərbaycan və Bakı haqqında ətraflı məlumatlar yerləşdirilib.

İtaliyanın «Eurasian Business Dispatch» portalında «Cənubi və Mərkəzi İtaliya şirkətlərinin Azərbaycana ixrac imkanları» adlı məqalə dərc olunub.

# Əmək hüquqları qorunmalıdır

**İşçi qəbulu zamanı əmək müqaviləsinin bağlanmaması və bu məsələdə gizli razılaşmaların olması nəticə etibarilə gəlir vergisinin və sosial ödənişlərin yerinə yetirilməməsinə gətirib çıxarır, bununla da vətəndaşların hüquqları kobud şəkildə pozulur. İqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi insan hüquqlarının pozulması ilə yanaşı, ölkənin iqtisadi rifahına mənfi təsir göstərir, vergilərdən yayınmaya səbəb olur.**

Vergidən yayınma hallarının aradan qaldırılması, əlavə vergi potensialının müəyyən edilməsi, işçi sayının və iş yerlərinin düzgün rəsmiləşdirilməsi məqsədilə Vergilər Nazirliyində «İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair» Tədbirlər Planı təsdiq olunmuşdur. Nazirlik həm işçilərin hüquqlarının qorunması, həm də vergi qanunvericiliyinin pozulması hallarının qarşısını almaq üçün inzibati tədbirlərdən daha çox maarifləndirici, məlumatlandırıcı və stimullaşdırıcı tədbirlərə üstünlük verir. Nazirlik tərəfindən «Vergi ödəyicilərinə göstərilən xidmətlər - məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının və KİV-in rolunun artırılması» layihəsi hazırlanmış, layihə çərçivəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Vergi ödəyicilərinin istənilən vaxt, istənilən yerdən, istənilən növ informasiyaya çıxışını təmin etmək günün ən vacib məsələlərindən birinə çevrilmişdir. Vergilər Nazirliyi bu məqsədlə «195» Çağrı Mərkəzi, taxes.gov.az. veb saytı, vergi ödəyicilərinə xidmət mərkəzləri, «Vergi dostları» şəbəkəsindən, sosial mediadan geniş istifadə edir. Böyük auditoriyaya malik «Facebook», «Twitter» sosial şəbəkələrində, «Youtube» və video.az, video-hostinq səhifələrində Vergilər Nazirliyinin səhifələri yaradılmış və istifadəçilər arasında mütəmadi olaraq təbliğat işləri aparılır. Bunlarla yanaşı, vergi ödəyicilərinin mobil telefonlarına müvafiq bildirişlər, mesajlar göndərilir.

Bu günlərdə Vergilər Nazirliyi tərəfindən ictimaiyyətə təqdim olunmuş «Yaşıl dəhliz» layihəsinin əsas məqsədlərindən biri «partnyor vergi ödəyicisi statusu» əldə edən intizamlı vergi ödəyicilərinin sayını artırmaq və onlara göstərilən vergi xidmətlərinin səviyyəsini yüksəltməkdir. Belə ödəyicilər vergi hesabatlarını vaxtında, düzgün təqdim etməli, vergiləri tam həcmdə gecikdirmədən dövlət büdcəsinə ödəməli, işçilərin sayını və onların əmək haqlarını düzgün bəyan etməli, mühasibat qaydalarına riayət etməlidirlər və s. Partnyor vergi ödəyicilərinə xidmətlər ərazi məhdudiyyəti nəzərə alınmadan «Yaşıl dəhliz» prinsipi əsasında göstəriləcək. Vergi ödəyicisinin istəyinə uyğun olaraq ünvanlı xidmət onun iş yerində də həyata keçirilə bilər. Bunun üçün hər bir partnyor ödəyici üçün aidiyyəti vergi strukturundan ayrılacaq kuratorlar onlara qanunvericilikdə baş verən dəyişiklikləri izah edəcək, işçilərin və vergi ödəyicilərinin özlərinin hüquqlarının qorunmasında zəruri yardımlar göstərəcək.

> «Vergi ödəyicilərinə göstərilən xidmətlər - məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının və KİV-in rolunun artırılması» layihəsi hazırlanmış, layihə çərçivəsində bir sıra tədbirlər həyata keçirilmişdir

«Yaşıl dəhliz» layihəsi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, könüllü vergi əməletməsinin artmasına, əmək hüquqlarının qorunmasına və əmək müqavilələrinin bağlanmasına nəzarətin güclənməsinə, beləliklə də cəmiyyətdə vergi mədəniyyətinin daha da yüksəlməsinə şərait yaradacaq.

**Rəşad SADIQOV**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin yanvar və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin yanvar və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Zəngin insanlar bahalı mallar və zinyət əşyaları alarkən daha çox vergi ödəyəcəklər

## İdxal olunan bir sıra mallara aksiz dərəcələri artırılıb

Aksiz - qanunvericilikdə müəyyən edilən aksizli malların satış qiymətinə daxil edilən dolayı (istehlak) vergi növüdür. Azərbaycan Respublikasında aksizli mallara içməli spirt, pivə və spirtli içkilərin bütün növləri, tütün məmulatları, neft məhsulları, minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz edilmiş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla), istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr, idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal edilmiş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz aid edilir.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin məlumatına görə, 2017-ci ildən Azərbaycana idxal olunan qiymətli metallara görə aksizin dərəcəsi təqribən 2-3 dəfə artırılmış, idxal olunan xəz-dəri məmulatları aksizli malların siyahısına əlavə edilmişdir.

Beləliklə, bu ilin yanvarın 1-dən Azərbaycana idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza, eləcə də xəz-dəri məmulatlarına aşağıdakı aksiz dərəcələri tətbiq ediləcək:

- idxal olunan platinin hər qramına görə - 4 manat (bundan əvvəl 2 manat);
- idxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarına görə: 375 əyarlı qızıl, hər qramına görə - 1,5 manat (bundan əvvəl 0,8 manat); 500 əyarlı qızılın hər qramına görə - 2 manat (bundan əvvəl 1,0 manat); 585 əyarlı qızılın hər qramına görə - 2,4 manat (bundan əvvəl 1,2 manat); 750 əyarlı qızılın hər qramına görə - 3 manat (bundan əvvəl 1,5 manat); 958 əyarlı qızılın hər qramına görə - 5 manat (bundan əvvəl 1,8 manat); 999 əyarlı qızılın hər qramına görə - 6 manat (bundan əvvəl 2 manat).

İdxal olunan emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün 400 manat (bundan əvvəl 200 manat) olmaqla, aksiz dərəcəsi aşağıdakı qaydada hesablanır:

- almazın bir ədədinin miqdarı 1 karatdan aşağı olduqda, aksiz dərəcəsi almazın faktiki miqdarına mütənasib olaraq azaldılır;
- almazın bir ədədinin miqdarı 1 karatdan yuxarı olduqda, aksizin məbləği aksiz dərəcəsi ilə almazın faktiki miqdarının hasilinə aşağıdakı əmsallar tətbiq edilməklə hesablanır: 1 karatdan 2 karatadək olduqda - 2; 2 karatdan 3 karatadək olduqda - 3; 3 karatdan 4 karatadək olduqda - 4; 4 karatdan 5 karatadək olduqda - 5; 5 karatdan yuxarı olduqda - 10.

İdxal olunan xəz-dəri məmulatlarının topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinin 10 faizi həcmində aksiz dərəcəsi tətbiq olunacaq.

**F. İKRAMQIZI**

---

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol xəritəsi»nə əsasən, ölkəmizdə 2018-ci ilədək dövlət-özəl investisiya fondlarının yaradılması gözlənilir. Bununla bağlı İqtisadiyyat, Maliyyə, Kənd Təsərrüfatı nazirlikləri və yerli icra hakimiyyəti orqanları ilə birlikdə təhlillər aparılacaq.

## Ölkədə kənd təsərrüfatının sürətli inkişafını təmin etmək üçün dövlət və özəl sektorda fəaliyyət göstərən maraqlı tərəflərin inteqrasiyası olduqca vacib məsələdir və bu, hökmən stimullaşdırılmalıdır

İqtisadçı ekspert Pərviz Heydərovun rəyinə görə, dövlət başçısının imzaladağı «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» fərman ölkəmizin yeni iqtisadi situasiya ilə əlaqədar seçməli olduğu növbəti inkişaf modelinin bünövrə mexanizmini müəyyən edir. Sənədin əhəmiyyəti ondadır ki, gələcəkdə atılacaq addımlar, həyata keçiriləcək tədbirlər, imzalanacaq hər bir sənəd strateji yol xəritələrinə uyğunlaşdırılacaq.

Ekspertin sözlərinə görə, aqrar sahəyə dair «Strateji yol xəritəsi»ndə dövlət-özəl investisiya fondunun yaradılmasının nəzərdə tutulması uğurlu bir təklifdir. Ölkədə kənd təsərrüfatının sürətli inkişafını təmin etmək üçün dövlət və özəl sektorda fəaliyyət göstərən maraqlı tərəflərin inteqrasiyası olduqca vacib məsələdir və bu, hökmən stimullaşdırılmalıdır: «Bu məqsədlə 2017-ci ilin ilk yarısında dövlət-özəl tərəfdaşlığı üçün nəzərdə tutulan dəstək paketinin təsdiqlənməsi və 2017-ci ilin ikinci yarısında investisiya təşviqi sənədinin hazırlanması, investorların müzakirələrə dəvət edilməsi zəruridir. Strategiyada 2018-ci ilin ilk yarısında ilkin müzakirələrdən sonra fəaliyyətin icra mərhələlərinin və indikatorların müəyyən edilməsi planlaşdırılır, müəyyənləşdirilmiş göstəricilərin əldə olunması üçün 2020-ci ilə kimi 15 genişmiqyaslı kompleks layihənin həyata keçirilməsinə şərait yaradılacaq. Bu layihələr üçün nəzərdə tutulan xammalın 40%-i yeni təsərrüfatlardan, qalan hissəsi isə yerli istehsalçılardan alınacaqdır və bu vəzifənin həyata keçirilməsi üçün tələb edilən investisiya məbləği 325 milyon manat hesablanıb».

Qeyd edək ki, ölkədə kompleks dövlət-özəl tərəfdaşlığının yaradılması üç dəstək mexanizmi - torpaq, infrastruktur və maliyyələşdirmə əsasında stimullaşdırılacaq. Maliyyələşdirmə mexanizmi Azərbaycanda ixrac potensiallı məhsulların istehsalının artırılmasına kapital qoymaq məqsədilə seçilmiş və prioritet təşkil edən sənaye sahələrində həyata keçirilən kompleks layihələrə tətbiq olunacaq.

**FƏXRİYYƏ**

---

# Vergi ödəyicilərinin işi asanlaşdırılır

## *Sadələşdirilmiş verginin bəyannaməsini 1 nömrəli əlavəsi ilə birlikdə onlayn qaydada tərtib edərək vergi orqanına göndərmək üçün video təlimatdan istifadə etmək*

Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «Aktual» bölməsində ötən ilin sonlarından vergi ödəyicilərinin ixtiyarına verilmiş «Sadələşdirilmiş verginin ödəyiciləri üçün praktiki vəsait»də sadələşdirilmiş verginin bəyannaməsinin 1 nömrəli əlavəsi ilə birlikdə onlayn qaydada tərtib edilərək vergi orqanına göndərilməsinə aid video təlimat yerləşdirilib. Təlimatdan faydalanmaq üçün, nazirliyin www.e-taxes.gov.az saytına daxil olaraq saytın sol tərəfindəki «Giriş» düyməsini sıxmaq, açılan pəncərədə istifadəçi kodunu, şifrə və parolu və ya «ASAN imza» məlumatlarını müvafiq xanalara daxil etmək lazımdır. Daha sonra «Bölmə» hissəsindən «e-bəyannamə» alt bölməsindəki «Daxil ol» düyməsi seçilməlidir. Açılan pəncərədə «e-bəyannamə» blokundan «Onlayn sadələşdirilmiş bəyannamə» alt menyusunu seçməklə bəyannaməni tərtib etmək mümkündür. Sadələşdirilmiş vergi ödəyiciləri http://youtu.be/3nlelrGgdPO ünvanına daxil olaraq bu barədə daha ətraflı məlumat əldə edə bilərlər.

---

# AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ

## ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində vakant vəzifələrə işə qəbul üzrə müsabiqə

# ELAN EDİR

Müsabiqədə hüquqşünaslıq, iqtisadiyyat və idarəetmə ixtisas istiqamətlərinə uyğun ixtisaslar üzrə ali təhsili olan (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar iştirak edə bilərlər.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

* məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
* üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə sənədlər elektron ərizə vasitəsilə 5 yanvar 2017-ci ildən 18 yanvar 2017-ci il saat 24:00-dək qəbul edilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (**www.taxes.gov.az və www.e-taxes.gov.az**) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə iş nömrəsi verilir. Namizəd sənədləri qəbul etdikdən beş gün ərzində verilmiş iş nömrəsi əsasında ərizəsinin qəbul edilib-edilmədiyi barədə məlumat ala bilər.

Namizədlər internet vasitəsilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda Vergilər Nazirliyinə (tel: 012-403-81-35), Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sənədləri qəbul edilən namizədlər imtahana buraxılış vərəqələrini 25 yanvar 2017-ci ildən 27 yanvar 2017-ci il saat 18:00-dək Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 28 yanvar 2017-ci ildə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (**www.taxes.gov.az**) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**Diqqət!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan vətəndaşlara üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dilini bilmə səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

Müsabiqədə uğur qazanan vətəndaşlara ərazi vergi orqanlarında və ya rayon vergilər şöbələrində vakant vəzifələr üzrə iş təklif ediləcəkdir. Göstərilən təklifdən imtina edən şəxslər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

---

## vergi təqvimi

| YANVAR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | 31 | | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

16 yanvar - «(1)», «(2)»

23 yanvar - «1-1», «1-2», «3», «4», «7», «8», «9», «9-1», «10.1», «10.2», «10.3» və «11»

31 yanvar - «10.1»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilndə fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə)** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər**: ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlət rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edildilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# ƏDV-nin dərəcəsini artırmaq təklif olunub

Cənubi Afrika Respublikasında (CAR) iqtisadi artımın aşağı tempdə olmasını və bunun nəticəsi olaraq hökumətin fiskal konsolidasiya üzrə qarşıya qoyduğu məqsədə çata bilməyəcəyini nəzərə alaraq, Beynəlxalq Valyuta Fondu (BVF) əlavə dəyər vergisini artırmağı təklif etmişdir. Fondun missiyasının ölkədəki iqtisadi vəziyyətin perspektivlərini müzakirə etmək üçün CAR-a səfərindən sonra yayılmış açıqlamada bildirilir ki, ortamüddətli büdcə siyasəti haqqında hesabat çərçivəsində nəzərdən keçirilmiş fiskal tədbirlər borclanmanın məqbul səviyyəsinin saxlanılması ilə qeyri-sabit iqtisadi artım arasında tarazlıq yaradır. Açıqlamada deyilir: «Orta müddət üçün iqtisadi artım proqnozlarına azalma istiqamətində yenidən baxılacağı halda, dövlət sektorunda əmək haqlarının və istehlak vergisinin artırılması kimi əlavə tədbirlərin görülməsinə ehtiyac var».

Vergi Komitəsinin keçənilki hesabatında ƏDV dərəcəsinin artırılmasının CAR iqtisadiyyatına təsiri müzakirə edilmişdi.

# Hindistanda rəqəmsal xidmətlərə yeni vergi tətbiq edilir

Maliyyə naziri Santoş Hanqvarın sözlərinə görə, bu vergi son altı ay ərzində hökumətə 1,4 milyard rupi (20.631.579 ABŞ dolları) gəlir gətirmişdir. 2016-cı ilin büdcəsinə internet xidmətlərinə və Hindistanda daimi nümayəndəliyi olmayan qeyri-rezidentlərdən və Hindistanın vergi rezidentlərindən alınan reklam xidmətlərinə altı faizlik vergi qoyulması təklif edilmişdi. Bu vergi yalnız məbləği 100 min rupidən (1484 dollardan) artıq olan tranzaksiyalara aid edilir. Bu yığım OECD-nin vergi tutulan bazanın yuyulmasına və gəlirlərin vergidən yayındırılmasına qarşı mübarizə (BEPS) planı çərçivəsində irəli sürdüyü əlavə dəyər vergisinin dərəcəsinin artırılması ilə bağlı tövsiyəsinə uyğun olaraq tətbiq edilir.

# Portuqaliyada pəncərələri dənizə baxan evlərə vergi artırılır

Ölkənin fiskal orqanları daşınmaz əmlaka, o cümlədən dəniz mənzərəsinə baxan evlərə qoyulan verginin dərəcəsini artırmışdır. Bundan sonra pəncərəsindən dəniz görünən ev sahibləri standart dərəcə ilə müqayisədə 20% artıq vergi ödəyəcəklər. Maraqlı cəhət budur ki, pəncərəsi şimala açılan və ya pəncərəsindən qəbiristanlıq görünən ev sahibləri əmlak vergisini 10% güzəştlə ödəmək hüququna malikdirlər.

Artıq qüvvəyə minmiş bu qanun yalnız yeni tikilən binalara, eləcə də yenidən qiymətləndirilmiş mənzillərə tətbiq olunur. Əmlaka qoyulan vergi hesablanarkən, hansı mərtəbədə yerləşməsindən asılı olmayaraq, mənzilə günəş işığının düşməsi nəzərə alınır.

Yeni qaydaları əhali birmənalı qarşılamamışdır. Çünki son on ildə Portuqaliyada inşa edilmiş binaların əksəriyyətinin pəncərələri enerjiyə daha çox qənaət etmək məqsədilə cənuba baxır. «Belə çıxır ki, bizi qənaət etməyə cəhd göstərdiyimizə görə cəzalandırırlar, - Lissabondakı Ev Sahibləri Assosiasiyasının rəhbəri Luiş Menezeş demişdir. - Mən xeyli insan tanıyıram ki, əmlak üçün yeni müəyyənləşdirilmiş vergini ödəmək imkanında deyil».



# BVF Yunanıstanın vergi və pensiya siyasətini kəskin tənqid edib

Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatında bildirilir ki, uzun müddət davam edən maliyyə böhranından qurtara bilməməsinin başlıca səbəblərindən biri Yunanıstanın öz vergi rejimində əsaslı islahat aparmaqdan imtina etməsidir. BVF Yunanıstanı borclanma yükünün əvəzinə daha sərt büdcə qənaətinə keçməyə çağırmışdır. Qeyd edilmişdir ki, dövlət xərclərinin və investisiyaların azaldılması ilə müqayisədə vergi islahatı əhəmiyyətli dərəcədə az çətinlik yarada bilər. BVF-nin mövqeyinə görə, dövlət xərclərinin və investisiyaların azaldılması iqtisadi artımın və əsas kommunal xidmətlərin göstərilməsinin qarşısını alır. «Əvvəllər olduğu kimi, Yunanıstanın vergilərin və xərclərin strukturunda islahat aparması zəruridir, çünki bu amillər iqtisadiyyatın artımı və vergiqoymanın ədalətliliyi ilə bir arada heç yola getmir», - BVF-nin məlumatında bildirilir.

Yunanıstan büdcədə ciddi dəyişikliklər etsə də, BVF-nin rəyinə görə, bu dəyişikliklər əsas problemlərin həlli, xüsusən də vergi və pensiya sistemlərinin islahatı nəzərə alınmadan olunmuşdur.

Fonddan bildirildiyinə görə, səxavətli vergi güzəştləri ucbatından hazırda ev təsərrüfatlarının yarıdan çoxu gəlir vergisi ödəməkdən azaddır. Müqayisə üçün bildirilmişdir ki, avro zonasında ailələrin cəmi səkkiz faizi gəlir vergisi ödəməkdən azad edilmişdir. Bundan əlavə, pensiya sistemindəki «izafi səxavətlilik» də dövlətə hər il ümumi daxili məhsulun 11 faizi məbləğinə başa gəlir. «Sadə dillə desək, Yunanıstan infrastrukturun və məqsədyönlü sosial proqramların maliyyələşdirilməsi ucbatından öz iqtisadiyyatını modernləşdirə bilmir, bununla belə, ev təsərrüfatlarının yarıdan çoxu gəlir vergisindən azad edilmişdir və ölkə Avropanın ən varlı ölkələri səviyyəsində dövlət pensiyaları ödəyir», - BVF-nin məlumatında bildirilir.

# İrlandiya «vergi limanı» statusunu inkar edir

Ölkənin Baş naziri Enda Kenni "Oksfam təşkilatının İrlandiyanı «ən pis vergi limanları» siyahısına saldığı məruzəsinə cavab olaraq bu iddianı təkzib etdiyini bildirmişdir. O, parlamentdəki çıxışında öz ölkəsinin vergi limanı olmaq təsnifatına salına biləcəyini müəyyənləşdirən heç bir beynəlxalq meyarın mövcud olmadığını demişdir. Əlavə etmişdir ki, İrlandiya vergi informasiyasının mübadiləsi və maliyyə şəffaflığı üzrə dünyada qəbul olunmuş standartların hamısına əməl edir.

Baş nazirin sözlərinə görə, ölkədə korporativ vergi dərəcəsinin 12,5% səviyyəsində olması OECD-nin tələblərinə tam uyğundur. Bu vergi dərəcəsi həqiqətən də digər Avropa ölkələri ilə müqayisədə aşağı olsa da, xarici investisiyaların iqtisadiyyata cəlb edilməsi və İrlandiya vətəndaşları üçün yeni iş yerlərinin açılması məqsədilə müəyyənləşdirilmişdir. Qeyd olunmuşdur ki, İrlandiya hökuməti əldə etdiyi nailiyyətərlə kifayətlənmir və ölkədə OECD-nin bütün tələblərinə əməl olunmasına şərait yaradır.

## Xəbər lenti

**Rusiya** parlamentinin Vergi Məcəlləsinə dəyişiklik üzrə əsas kimi qəbul etdiyi qanun layihəsinə əsasən, bu ildən likör-araq məhsullarına tətbiq edilən aksiz 20%, az alkoqollu içkilərə və şəraba tətbiq olunan istehlakçı qiyməti indeksi isə 12% artırılmışdır.

**Belarusda** yanvarın 1-dən uber xidmətlərinə əlavə dəyər vergisi tətbiq edilir. Bütün elektrorabitə xidmətlərinin göstərilməsi üçünsə hazırda 20% olan ƏDV dərəcəsi 25%-ə qaldırılmışdır.

**Şotlandiya** hökuməti aviasiya ilə sərnişin daşınmasına tətbiq olunan ümumi Britaniya sxemini özünə aid avia yığımı - uçuş vergisi ilə dəyişdirməyi planlaşdırır.

**Avropa İttifaqı**na daxil olan ölkələrin hökumətləri offşorlarda qeydiyyata alınmış şirkətlərin əsl sahibləri haqqında informasiyanın açıqlanmasına imkan verən vergi şəffaflığının artırılması planını dəstəkləməkdən imtina etmişlər.

**Kayman adaları** hökuməti ölkəyə gətirilən tikinti materiallarına qoyulmuş 15%-lik rüsumun müddətinin daha bir il - 31 dekabr 2017-ci ilədək uzadıldığını bəyan etmişdir.

**BVF** keçən ilin sonunda verdiyi açıqlamada Şri-Lankanın vergi islahatlarını bəyəndiyini, şəffaflığa yönəldilmiş islahatların vergi yığımlarının artmasına və vergi inzibatçılığı metodlarının təkmilləşdirilməsinə kömək edəcəyini bildirmişdir.

**İtaliya**da keçən ilin sonunda vergi amnistiyasının yekun proseduru - vergi informasiyasının könüllü açıqlanması proqramı nəşr edilmişdir. Sənədə əsasən, 2017-ci il iyulun 31-dək davam edəcək vergi amnistiyası nəticəsində dövlət 2,5 milyard avro əlavə vəsait əldə edəcək.

**Cənubi Afrika** hökuməti ölkənin hava limanlarında sərnişinlərdən tutulan vergiləri, eləcə də təyyarələrin enməsi, həmçinin gözləməsi üçün yığımları azaltmaq barədə qərar qəbul etmişdir.

# Qeyri-rezidentlər üçün yeni vergi qaydası

İtaliya hökuməti zəngin qeyri-rezidentləri ölkəyə cəlb etmək üçün yeni vergitutma qaydaları tətbiq etməyi planlaşdırır. Bu addımın atılması ölkənin 2017-ci il üçün təsdiq edilmiş büdcəsində nəzərə alınmışdır.

Yeni qaydaya əsasən, İtaliya əcnəbilərə xüsusi status verəcək, onlar offşor zonalardan əldə etdikləri gəlirlərə görə bu ölkədə vergi ödəməkdən azad olunacaqlar. Qeyri-rezidentlər üçün vergitutmanın bu qaydası hər il 100 min avro yığım təqdim edilməsi halında mümkün olacaq. Bu yığım həmçinin adambaşına 25 min avro olmaq şərtilə bütün ailəyə də şamil edilir. Vergitutmanın rezidentlər üçün nəzərdə tutulan yeni qaydaları 15 il qüvvədə olacaq, bu şərtlə ki, əcnəbilər yığımları həmin müddət ərzində düzgün ödəsinlər.

Yeni qayda, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, İtaliyaya gələnə qədər 9 il ərzində burada vergi rezidenti olmamış bütün şəxslərə aid ediləcək.



## krossvord

**Yuxarıdan aşağı:** 1.«O olmasın, bu olsun» filmində (1956) Gülnaz obrazını canlandıran aktrisanın adı; 2.Etil efirli kimyəvi birləşmə; 3.Afon adalarında yerləşən qədim yunan şəhəri; 4.Rusiya Federasiyasının Novosibirsk vilayətində çay; 5.İsveçrədə şəhər; 6.XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış türk yazıçının adı - «Firaqi-İraq», «Malta gecələri», «Füzuli» kimi əsərləri ilə məşhurdur; 7.İlin son ayı; 13.Görkəmli alman filosofu, neoklassik alman fəlsəfəsinin banisi, müasir Avropa fəlsəfə tarixinin ən nüfuzlu nümayəndələrindən biri; 15.Şəkildə, rəngli qravürada, mozaikada və s.-də rənglər, tonlar arasında əlaqə, münasibət, uyğunluq; 16.Düşüncə və duyğunun ağır formada pozulduğunu təyin edən psixiatriya termini; 17.Alman qotik və intibah rəssamı. Dunay rəsm məktəbinin nümayəndəsi; 18.Beyləqan rayonunun əvvəlki adı; 20.Yaxın Şərqdə dövlət; 21.Vergi tətbiq olunan sənaye sahəsi.

**Soldan sağa:** 1.Geniş yayılmış antibiotik; 8.İçərişəhərdə XIV əsrə aid tarixi memarlıq abidəsi olan restoran kimi fəaliyyət göstərən karvansaray; 9.XV-XVII əsrlərdə Rusiyada feodal və mülkədarların zülmündən ucqarlara (Don, Yaik, Zaporojye) qaçıb azad olmuş təhkimli kəndlilərə, nökərlərə və şəhər yoxsullarına verilmiş ad; 10.Ədəbiyyat termini: hər beytin axırında qafiyədən sonra təkrar edilən söz və ya söz birləşməsi; 11.Təyyarə ilə uçmaqdan qorxan şəxs; 12.Antarktidada ən uzun çay, həmçinin mineral adı; 14.Vətəni Amerika olan qəhvə içkisi; 19.Həndəsi fiqur; 21.İsa peyğəmbərin doğum günü ilə bağlı qeyd edilən bayram; 22.1515-1920-ci illər arasında Orta Asiyada mövcud olmuş xanlıq; 23.Ölkəmizdə becərilən sitrus meyvələrindən biri; 24.Niderlandda çay; 25.Feilin məsdər forması.



*«O olmasın, bu olsun» filmindən epizod*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Pələng; 2.Nominal. 3.Raisa (Nedaşkovskaya);4.Tamaşa; 5.Ostende; 6.Dopinq; 7.Koir; 13.Arça; 15.Rotonda; 16.Omonim; 17.Moskva; 18.Afurca; 20.Zakir; 21.Sufle. **Soldan sağa:** 1.Pankration; 8.Lamaizm; 9.Tromp. 10.Nansa; 11.Şönbrun (saray); 12.IAlmaz»; 14.Nehrə; 19.Mazaçço; 21.Setif; 22.Nike; 23.Skafandr; 24.Mer; 25.Qvatemala.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Azərbaycan idmançıları ötən ili böyük uğurlarla başa vurublar

**Yola saldığımız 2016-cı il Azərbaycanda digər istiqamətlərlə yanaşı, idman sahəsində də möhtəşəm uğurlarla tarixə yazıldı. Belə ki, təkcə bir il ərzində Azərbaycan dünyanın ən mötəbər idman yarışlarından olan Formula-1 Avropa Qran-prisinə, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə ev sahibliyi etməklə yanaşı, Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya və XV Paralimpiya oyunlarında böyük uğurlar qazanaraq, idman ölkəsi olduğunu bir daha dünyaya sübut etdi.**

Ötən il respublikamızda fəaliyyət göstərən federasiyalarla birlikdə Azərbaycanda 200-dən çox yarış təşkil olunub, ölkəmiz 52 beynəlxalq turnirə yüksək səviyyədə ev sahibliyi edib. İdmanın müxtəlif növləri üzrə yığma komandaların hər biri 12 gündən az olmayaraq, 100-dən çox təlim-məşq toplanışında iştirak ediblər. 2016-cı ilin avqustunda dünyanın diqqəti Rio-de-Janeyroya - dördilliyin zirvə yarışı olan Yay Olimpiya Oyunlarına yönəldi. Azərbaycan yığma komandası XXXI Yay Olimpiya Oyunlarına əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə - idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) ilə qatıldı. Bu, ötən Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çox idi. Ölkəmiz triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom üzrə yarışlarda ilk dəfə təmsil olundu. Olimpiadada ölkəmizi təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya Oyunlarının iştirakçısı idi. Lakin buna baxmayaraq, XXXI Yay Olimpiya Oyunları Azərbaycan üçün uğurlu oldu. «Rio-2016»da Azərbaycan komandası 18 (1 qızıl, 7 gümüş və 10 bürünc) medal qazandı. Medalların sayına görə Azərbaycan komandası 14-15-ci yerləri bölüşür. Bu göstərici üzrə yığma komandamız Avropa ölkələri arasında 7-ci, keçmiş Sovet İttifaqı respublikaları arasında 2-ci, müsəlman ölkələri arasında isə 1-ci yerdədir.





Sentyabrda Rio-de-Janeyroda təşkil olunan XV Yay Paralimpiya Oyunlarında Azərbaycanın 24 idmançısı mübarizəyə qoşuldu. Paralimpiyaçılarımız «Rio-2016»ya idmanın 6 növü üzrə 41 lisenziya qazanmışdılar. İdmançılarımız cüdo, atletika, pauerliftinq, üzgüçülük, güllə atıcılığı və kamandan oxatma yarışlarında mübarizə apardılar. Milli komandamız uğurlu nəticə göstərərək 1 qızıl, 8 gümüş və 2 bürünc olmaqla, ümumilikdə 11 medal əldə etdi. Paralimpiya yığmamız medalların ümumi sayına görə iştirakçı ölkələr arasında 33-cü, Avropa ölkələri arasında 16-cı, müsəlman ölkələri sırasında 6-cı, MDB ölkələri arasında isə 3-cü yerdə qərarlaşıb.

Ötən ilin iyununda Azərbaycan növbəti mötəbər yarışa - Formula-1 Avropa Qran-prisinə yüksək səviyyədə ev sahibliyi edərək dünyanın diqqətini yenidən özünə cəlb etdi. Dünyada Olimpiya Oyunları və futbol üzrə dünya çempionatlarından sonra ən çox tamaşaçı auditoriyasına sahib olan bu mötəbər idman yarışı Bakıda yüksək peşəkarlıqla təşkil olundu. Dünyanın ən məşhur Formula-1 pilotlarının ölkəmizdə bir araya gəlməsi Azərbaycanın idman uğurunun növbəti təntənəsi idi. Azərbaycan ilə yanaşı, dünyanın 21 ölkəsində təşkil olunan Formula-1 yarışı ölkəmizin tanıdılması, turizm potensialının inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində növbəti mühüm addım oldu.





Geridə qoyduğumuz ildə Azərbaycanın ev sahibliyi etdiyi ən mötəbər yarışlardan biri də may ayının 4-də start götürən «Tour d'Azerbaidjan-2016» beynəlxalq velosiped turu idi. Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) təqvimində özünə möhkəm yer tutan, Bakının və bütövlükdə ölkəmizin dünyaya tanıtdırılmasında müstəsna rol oynayan bu turnir «Eurosport» vasitəsilə dünyanın 56 ölkəsinin 72 telekanalında yayımlanarkən 32,7 milyondan çox televizor bu kanallara köklənib. Hər televizor qarşısında da bir neçə nəfərin yarışları izlədiyini, habelə «Eurosport» kanalının rəsmi internet səhifəsinə «Tour d'Azerbaidjan»la bağlı 15 milyondan çox daxilolma qeydə alındığını nəzərə alsaq, yüz milyondan çox insanın həm velotur, həm də Azərbaycan barədə geniş məlumat əldə etdiyini əminliklə söyləmək olar.



**2016-cı ildə Azərbaycan idmançıları mötəbər beynəlxalq turnirlərdə ümumilikdə 837 medal qazanıblar. Bu medallardan 297-si qızıl, 250-si gümüş, 290-ı isə bürüncdür**



Bakıda təşkil olunan 42-ci Ümumdünya Şahmat Olimpiadası da ən yaddaqalan idman tədbirlərindən idi. Sentyabrın 1-14-də «Baku Crystal Hall»da təşkil olunan olimpiada Azərbaycanda keçirilən ən kütləvi yarış kimi tarixə düşüb. Bu mötəbər yarışda iştirak etmək üçün 176 ölkə qeydiyyatdan keçib. Olimpiadada 181 kişi və 142 qadın komandası mübarizə aparıb. Bu, iştirakçı ölkələrin sayına görə olimpiada tarixində rekord göstərici idi. Azərbaycan Şahmat Olimpiadasında üç qadın və üç kişi komanda ilə təmsil olunurdu.

Təbii ki, ölkəmizin idman sahəsindəki uğurları davam etməkdədir. Bu il paytaxt Bakı IV İslam Həmrəyliyi Oyunlarına, Formula-1 Azərbaycan Qran-prisinə, qadınlar arasında voleybol üzrə Avropa çempionatının final mərhələsinə ev sahibliyi edəcək. İslam Həmrəyliyi Oyunlarında dörd minədək atlet idmanın 21 növü üzrə yarışlarda mübarizə aparacaq.

Beləliklə, ölkəmizin idman uğurlarına nəzər salsaq, Azərbaycanın 2016-cı ili də yüksək nailiyyətlərlə başa vurduğunu tam əminliklə deyə bilərik.

## mozaika

### texnologiya

## Molekulyar ötürücülü ilk smartfon



«CES 2017» sərgisi çərçivəsində təqdim edilmiş bu cihaz əsl dərmanları, zinət və digər əşyaları daxili quruluşlarına görə saxta versiyalarından ayıra bilmək imkanına malikdir. «Changhong H2» adlanan cihaz molekulyar ötürücünün bazasında hazırlanan, infraqırmızı spektroskopiya əsasında çalışan skanerlə təchiz olunub. «Changhong H2» hər hansı bir əşyaya işıq şüasını yönləndirən zaman ötürücü həmin obyektin materialının spektrini əldə edir. Beləliklə, materialın tərkibini molekulyar səviyyədə öyrənmək mümkün olur.

İşlənmə sahəsi geniş olan bu smartfon vasitəsilə mağazalardakı ərzaqların tərkibini də müəyyənləşdirmək mümkündür. Hətta istehsalçılar bu smartfon vasitəsilə meyvələri skan edib onların arasında ən yaxşılarını (tərkibində nitrat olmayan) seçməyi məsləhət görürlər. Bundan əlavə, cihaz orqanizmdə olan yağın miqdarını da ölçə bilir. Bu funksiya isə idmançılar və çəki atmaq istəyənlər üçün aktualdır.

Yaxın vaxtlarda Çində satışa çıxarılacaq «Changhong H2»nin qiyməti 400 ABŞ dolları olacaq.

### səhiyyə

## Qlaukomanın erkən diaqnozu

Dünyada korluğun ikinci ən geniş yayılmış səbəbi olan qlaukomanın diaqnostikası oftalmoloqlar üçün xeyli çətinlik törədir. Roçester Tibb Mərkəzinin tədqiqatçıları bu xəstəliyin erkən diaqnozu və müalicəsinə yardım edən və torlu qişanın fərdi hüceyrələrinin təsvirlərini əldə edə bilən yeni texnologiya ərsəyə gətiriblər.

AOSLO adlı yeni cihaz vasitəsilə makakalar üzərində təcrübə aparılıb. Torlu qişada aparılan tədqiqat zamanı məlum olub ki, cihaz vasitəsilə hətta hüceyrə daxilindəki nüvələri də görmək mümkündür. Sonrakı mərhələdə alimlər yeni texnologiyanı insanların üzərində də sınayıblar. Onların bəziləri normal görmə qabiliyyətinə malik, bəziləri isə yaşla bağlı makula degenerasiyası və torlu qişanın bir qisminin qopması səbəbilə zəif görənlər olub.

Yeni texnika vasitəsilə torlu qişanın kiçik görüntüsü əldə edilsə də, ondan qlaukoma ilə yanaşı, makula degenerasiyası və rəng korluğu kimi digər xəstəliklərin diaqnostikasında da istifadə etmək mümkündür. Lakin tədqiqatçılar dəqiqlik və təhlükəsizliyi artırmaq məqsədilə cihazı daha da təkmilləşdirə bilərlər.

### ekologiya

## Mərcan rifləri solur

Qlobal istiləşmə mərcan riflərinin rənginin solmasına və məhvinə gətirib çıxarır. Bu da planetimizin ən mühüm ekoloji sistemlərindən birinə çox ciddi təhlükə törədir.

BMT-nin Ətraf Mühit Proqramının (UNEP) dəstəyi ilə hazırlanmış yeni tədqiqatın nəticələrinə görə, indiki tendensiya davam etsə və beynəlxalq birlik istixana qazlarının emissiyalarının azaldılmasına nail ola bilməsə, artıq bu əsrin sonlarına doğru mərcan riflərinin 99 faizinin rəngi solacaq. Bildirilir ki, ekologiyanın pisləşməsi ilə əlaqədar mərcan riflərinin çoxunun rəngi solur, fotosintetik fəallığı itir və məhv olur. Nəticədə onların çoxlu sayda heyvan və bitkinin yaşayışına şərait yaradan ekoloji sistemi pozulur. 2016-cı ildə bu proses Avstraliya ərazisində yerləşən Böyük Baryer Rifində mərcanların 90 faizinə təsir göstərib. Bütövlükdə ötən il bütün dünyada mərcan riflərinin 20 faizi məhv olub.

İqlim üzrə Paris sazişi mərcan riflərinin müdafiəsini təmin edir, amma bu, yetərli deyildir. Selsi ilə 1,5 dərəcəyə qədər istiləşmə nəticəsində 2070-ci ilə qədər planetimizdəki mərcan riflərinin üçdə iki hissəsinin rəngi sola bilər. Proqnozlara görə, bu proses ilk növbədə Tayvanda və Terks və Kaykos arxipelaqı ətrafındakı mərcan liflərinə təsir göstərəcək. Sonrakı onilliklər ərzində Bəhreyn sahillərində, Çili və Fransa Polineziyasındakı riflərə də ziyan dəyəcək.

Qeyd edək ki, mərcan riflərinin rənginin bərpasına təqribən beş il vaxt lazımdır.



### maraqlı

## 52 milyon yaşında...

Alimlər Latın Amerikasının cənubunda, Pataqoniya qayalıqlarında daşlaşmış qədim bitkinin nadir nümunəsini aşkar ediblər. Onların fikrincə, bu meyvənin təqribən 52 milyon il yaşı var. Pensilvaniya Universitetinin alimləri həmin meyvənin müasir fizalisi xatırlatdığını bildirirlər.

Mütəxəssislər bu bitkinin təkamül prosesinin necə getdiyini hələlik bilmirlər. Çünki onun yalnız bir neçə toxumu aşkar edilib. Yalnız o məlumdur ki, həmin meyvə badımcançiçəklilər fəsiləsindəndir. Bu fəsiləyə iki mindən çox bitki növü, o cümlədən kartof, pomidor, badımcan, tütün və uzun bibər kimi geniş yayılmış bitkilər daxildir.

Alimlər ümid bəsləyirlər ki, yaxın vaxtlarda Cənubi Amerikada digər qədim meyvə nümunələrini tapa biləcəklər. Yeni tapıntılar müasir bitkilərin təkamülünü və necə inkişaf etdiyini öyrənməyə imkan verəcək.




ELAN

**«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


### Müdriklər deyib ki...

*«Qaranlıq zamanlarda işıqlı insanlar aydın görünür».*

*Erix Mariya Remark (1898-1970)*

